41 (1296) 19-25 oktyabr 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## "BİZ BU GÜN XANKƏNDİNİN MƏRKƏZİNDƏYİK, AZƏRBAYCAN BAYRAĞI ALTINDA, BU, TARİXİ HADİSƏDİR"



"Bu gün vaxtilə - hələ işğal dövründə dediyim sözlər və xalq tərəfindən təkrarlanan sözlər mənim üçün ən böyük mükafatdır. Mən o vaxt demişdim ki, nəyi, necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm". Bu sözləri Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra çıxış edərkən söyləyib. Dövlətimizin başçısı deyib: *"İkinci Qarabağ müharibəsi dayananda da Azərbaycan xalqı bilirdi ki, mən bunu bilirəm. O gündən üç il keçməmiş biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. İndi bu tarix haqqında danışmaq mənim üçün bəlkə o qədər də düzgün deyil. Çünki bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq".*

## "BİZ HEYDƏR ƏLİYEVİN 100 İLLİYİNİ ONUN SİYASƏTİNƏ, TARİXİ İRSİNƏ HÖRMƏT GÖSTƏRƏRƏK QEYD EDİRİK"

"Bu il "Heydər Əliyev İli"dir. Biz Heydər Əliyevin 100 illiyini il boyunca qeyd edirik. Necə qeyd edirik? Onun siyasətinə, onun tarixi irsinə hörmət göstərərək, onun siyasətini davam etdirərək qeyd edirik".

Bu sözləri Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra çıxış edərkən deyib.

Ulu Öndərin yubileyləri ilə bağlı xatirələrini bölüşən dövlətimizin başçısı qeyd edib: *"Mən Ulu Öndərin ad gününü (100 illiyini – red.) Şuşada keçirdim. Onun 50 illiyini mən yaxşı xatırlayıram. 1973-cü ildə evdə ancaq ailə üzvləri onu qeyd etdik. Altmış illiyini də xatırlayıram, o zaman Moskvada çalışırdı. Orada da heç bir qonaq yox idi. Yetmiş illiyini Naxçıvanda oraya gələrək atamla birlikdə qeyd etmişdim. Səksən illiyini isə, - artıq sağlamlığı o qədər də yerində deyildi, - Ankarada xəstəxanada, xəstəxananın yeməkxanasında keçirmişik. Ona görə də atamın 100 illiyini bizim üçün böyük rəmzi məna daşıyan, hər bir azərbaycanlının ürəyində yaşayan Şuşada qeyd etməli idim. Orada Azərbaycan xalqına müraciət edərək öz ürək sözlərimi dedim".*

## "ÖZÜNÜ "PREZİDENT" ADLANDIRAN 3 TƏLXƏK BU GÜN ÖZ LAYİQLİ CƏZASINI GÖZLƏYİR"

"Burada (Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin binası – red.) oturmuş özünü "prezident" adlandıran 3 təlxək bu gün öz layiqli cəzasını gözləyir. Bu binaların birində oturmuş, özünü "baş nazir" adlandıran bir adam görəsən bu gündəmi bizi hədələməyə cürət edəcək? Onun da çayı bu gün istintaq təcridxanasında verilir".

Bu sözləri Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra çıxış edərkən deyib.

Dövlətimizin başçısı bildirib: *"Burada özünü "xarici işlər naziri" adlandırmış bir separatçı o vaxt belə kinayə ilə deyirdi ki, Azərbaycan Bayrağını Xankəndidə qaldırmaq istəyirsə, səfirlik açsın bizim ölkəmizdə. İndi onun da çayı orada, təcridxanada verilir. Bizim Bayrağımız isə bax, oradadır. Bu, dərs olmalıdır onlara. Əfsuslar olsun ki, mənim 20 il bundan əvvəl dediyim və ondan sonra dəfələrlə təkrar etdiyim sözlər onlara çatmadı. Onlar hesab edirdilər ki, bu, sadəcə olaraq, sözdür. Xeyr, mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar!".*

## "20 İL ƏVVƏL QARŞIMA BİR NÖMRƏLİ VƏZİFƏ QOYMUŞDUM Kİ, AZƏRBAYCAN BAYRAĞI O VAXT İŞĞAL ALTINDA OLAN BÜTÜN ƏRAZİLƏRDƏ QALDIRILSIN"

"İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır".

Bu fikri Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra çıxış edərkən deyib.

Bu illər ərzində Azərbaycanın gücləndiyini və dünya miqyasında özünə layiq yerini tuta bildiyini vurğulayan dövlətimizin başçısı bildirib: *"Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi, dövlətimizin addımları nəinki bölgədə, daha da böyük coğrafiyada böyük məna daşıyır. Bir çox hallarda Azərbaycan önəmli təşəbbüslərin müəllifidir. Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Eyni zamanda, biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır".*

## "BU GÜN XANKƏNDİDƏ OLMAĞIMIZIN ƏSAS SƏBƏBKARI AZƏRBAYCAN XALQIDIR, AZƏRBAYCAN ÖVLADIDIR"

"Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq".

Bu fikri Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra çıxış edərkən deyib.

*"Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir"*, - deyə dövlətimizin başçısı bildirib.

## "AZƏRBAYCAN XALQININ ONİLLİKLƏR ƏRZİNDƏ OLAN ARZULARINI ÇİN ETDİK"

"Özünü "prezident" adlandırmış üç təlxək bax, burada (Xankəndidə - red.) oturub bizə meydan oxuyurdu, bizi hədələyirdi, bizi təhqir edirdi. Biz isə təmkinlə hər şeyə yanaşdığımız kimi, bu məsələyə də təmkinlə və səbirlə yanaşırdıq". Bu sözləri Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra çıxış edərkən söyləyib.

*"Çünki bilirdik ki, biz buraya gələcəyik. Mən bunu bilirdim. Mən düz 20 il bundan əvvəl – 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqına və özümə o sözü vermişdim. Bəli, biz 20 il gözlədik, daha doğrusu 17 il"*, - deyən dövlətimizin başçısı xatırladıb ki, üç il bundan əvvəl Şuşada bizim Bayrağımız qaldırıldı.

Prezident İlham Əliyev, həmçinin bildirib: *"Ancaq biz istədiyimizə nail olduq, Azərbaycan xalqının onilliklər ərzində olan arzularını çin etdik".*

**15 oktyabr 2023-cü il**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tərtər rayonuna səfər edib.

* * * *

Dövlət başçısı Tərtər rayonunun Suqovuşan qəsəbəsində istirahət parkının açılışında, Suqovuşan su anbarının təmir-bərpadan sonra istifadəyə verilməsi mərasimində iştirak edib.

* * * *

Sərsəng su anbarının ərazisində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

* * * *

Ağdərə şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb və əraziyə baxıb.

* * * *

Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində olub.

* * * *

Şuşa rayonunun Malıbəyli kəndində əraziyə baxış keçirib.

* * * *

Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

* * * *

Xocalı rayonunun Əsgəran qəsəbəsində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb və ərazi ilə tanış olub.

* * * *

Əsgəran qalasında olub, Əsgəran qalasına və əraziyə baxış keçirib.

* * * *

Xocavənd şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

* * * *

Ağdam-Füzuli avtomobil yolunun tikintisi işlərinin gedişi ilə tanış olub.

* * * *

**16 oktyabr 2023-cü il**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli rayonuna səfər edib.

* * * *

Dövlət başçısı Füzuli rayonunun Cuvarlı kəndinin təməlinin qoyulması mərasimində iştirak edib.

* * * *

Füzuli rayonunun Qoçəhmədli kəndinin təməlini qoyub.

* * * *

Füzuli şəhərində idman kompleksinin, ikinci və üçüncü yaşayış komplekslərinin, 240 yerlik uşaq bağçasının və inzibati binanın təməllərini qoyub.



**Ziyad Səmədzadə: Milli intibahımızın baş memarı. Səhifə 3**



**Prezident İlham Əliyevin Xankəndiyə səfəri və orada Azərbaycan Bayrağını ucaltması xarici KİV-lərin diqqət mərkəzindədir. Səhifə 6**



**Azərbaycanın dövlət müstəqilliyinin bərpasından 32 il ötür. Səhifə 6**

# “Biz birinci şəhərsalma layihəsini Füzulidə icra edirik”



“Bizim bütün şəhərlərimiz, bax, Füzuli kimi olacaq. Çünki Füzulidə biz birinci şəhərsalma layihəsini icra edirik”.
Bu barədə Prezident İlham Əliyev oktyabrın 17-də “Füzuli Şəhəri Günü”ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib.
Düzdür, laçınlıların öz doğma yurduna füzulilərdən bir qədər tez qayıtdıqlarını vurğulayan dövlətimizin başçısı deyib: ***“Amma Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma apardıqları üçün orada binaların bəziləri qalmışdı və biz o evləri sadəcə olaraq bərpa etdik, ən gözəl şərait yaratdıq. Deməli, Laçının əvvəlki şəhərsalma mənzərəsi yerindədir. Burada isə şəhər tamamilə yenidən qurulur”.***

# Prezident İlham Əliyev Azərbaycanı bölgənin lideri və söz sahibi olan qüdrətli bir dövlətə çevirdi

***“Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun yeganə düzgün yol olduğunu dərk edən xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə bu siyasətin layiqli davamçısı kimi cənab İlham Əliyevi dəstəkləyərək, onu özünə yeni Prezident seçdi və bununla da ölkəmizin inkişafında yeni bir mərhələ başladı”.***




Bunu dövlət başçısı İlham Əliyevin birinci müddətə Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyi münasibətilə Bakıda keçirilən “Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətin 20 ili” mövzusunda konfransda çıxışı zamanı Baş nazir Əli Əsədov deyib.
O qeyd edib ki, müasir tariximizə möhtəşəm 20 il kimi yazılan ötən dövrdə Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin inkişaf etdirərək yeni geosiyasi şərtlərə uyğunlaşdırdığı siyasət nəticəsində Azərbaycan Respublikası misilsiz inkişaf yolu keçib.
Əli Əsədov bildirib ki, 1918-ci ildən başlanan 105 illik Respublika tariximizə ən möhtəşəm 20 il kimi yazılan ötən dövrdə Prezident İlham Əliyev Azərbaycanı sürətlə inkişaf etdirərək, onu bölgənin lideri və söz sahibi olan, dünya birliyində öz layiqli yerini tutan, iqtisadi və hərbi gücü ilə öz problemlərini həll edən qüdrətli bir dövlətə çevirdi.
***“XXI əsrdə ərazi bütövlüyünü bərpa etmiş yeganə dövlət olan Azərbaycan yalnız öz gücünə, xüsusən də Prezident İlham Əliyevin əsəri olan güclü milli iqtisadiyyata söykənərək regionumuza sülh, əmin-amanlıq və inkişaf üçün yeni imkanlar gətirib”,*** - deyə Baş nazir əlavə edib.

# Ötən 20 ildə qeyri-neft sektoru üzrə ÜDM 3,4 dəfə artıb

“Son 20 ildə iqtisadi artım dinamikasına dair rəqəmlər bütün mənzərəni aydın göstərir. Belə ki, “Güclü iqtisadiyyat ən önəmli şərtdir” deyən Prezident İlham Əliyevin hakimiyyəti illərində Azərbaycanın ümumi daxili məhsulu real ifadədə 3,6 dəfə artıb. Bu, son iki onillikdə qlobal miqyasda əldə olunan ən yaxşı iqtisadi nailiyyətlərdən biridir”.
Bunu dövlət başçısı İlham Əliyevin birinci müddətə Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyi münasibətilə Bakıda keçirilən “Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətin 20 ili” mövzusunda konfransda çıxışı zamanı Baş nazir Əli Əsədov deyib.
Baş Nazir qeyd edib ki, dövlət başçısı iqtisadiyyatın şaxələndirilməsini milli iqtisadiyyat qarşısında əsas çağırış olaraq qoyub və bu istiqamətdə görülən işlər nəticəsində ötən 20 il müddətində qeyri-neft sektoru üzrə ÜDM 3,4 dəfə, dövlət büdcəsinin xərcləri 30 dəfə artıb. Əgər 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manatdan az idisə, hazırda bu rəqəm 3500 manatdan çoxdur. Xarici ticarət dövriyyəsi 10,8 dəfə, o cümlədən ixrac 16,1 dəfə artıb. 2003-cü illə müqayisədə 2022-ci ildə adambaşına düşən ÜDM 3 dəfəyə yaxın artaraq, 13 256 manat təşkil edib. Aparılan çoxşaxəli iqtisadi siyasət nəticəsində davamlı iqtisadi inkişaf təmin olunub. Birbaşa xarici borcun həcmi azalaraq hazırda ümumi daxili məhsulun 9,3 faizini təşkil edir. Azərbaycanın xarici valyuta ehtiyatları son 20 ildə 47 dəfədən çox artaraq 66 milyard ABŞ dollarını keçmişdir və hazırda birbaşa xarici borcumuzu 10 dəfə üstələyir.
Əli Əsədov bildirib ki, ötən 20 ildə sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çoxdur və onlardan 190 milyard dolları qeyri-enerji sektoruna yatırılıb. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində son 20 ildə qeyri-neft ixracı 8 dəfədən çox artıb. Bu dövr ərzində respublika üzrə 51 aqropark yaradılıb.

# Dövlət büdcəsinin xərcləri 1,2 milyard manatdan 36,6 milyard manata çatıb

“Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycan uzun illər iqtisadi inkişaf parametrlərinə görə dünyada lider mövqeyə malik oldu. 2003-2022-ci illərdə Azərbaycanda ümumi daxili məhsul 7.3 milyard dollardan 78.7 milyard dollara yüksəlib. 2003-2023-cü illərdə dövlət büdcəsinin xərcləri 1.2 milyard manatdan 36.6 milyard manata çatıb”.
Bunu Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev “Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətin 20 ili” mövzusunda konfransda çıxışı zamanı deyib. “Strateji valyuta ehtiyatları 2003-cü ildə 1.4 milyard dollardan 2023-cü il oktyabrın 1-nə 66.1 milyard dollara qədər artıb. 2003-2022-ci illərdə ölkə iqtisadiyyatına yatırılan ümumi investisiya həcmi 310.4 milyard dollar təşkil edib. 2003-cü illə müqayisədə 2022-ci ildə yoxsulluq səviyyəsi 44.7 faizdən 5.5 faizə enib, orta aylıq əmək haqqı 77.4 manatdan 839.4 manata yüksəlib”, - deyə Prezident Administrasiyasının rəhbəri vurğulayıb.

# “2026-cı ilin sonunda Füzuli rayonunda 22 min insan yaşayacaq”

“Füzuli indi tamamilə yenidən qurulur. Dünən burada olarkən bir neçə önəmli obyektin təməlini qoyduq. İki kəndin, uşaq bağçasının, idman kompleksinin, yeni yaşayış məhəllələrinin, inzibati mərkəzin təməli qoyuldu”.
Bu sözləri Prezident İlham Əliyev oktyabrın 17-də “Füzuli Şəhəri Günü”ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə söyləyib. ***“Yəni, aylar keçdikcə burada yaşayanların sayı da təbii ki, artacaq. Mənə dünən məlumat verildi ki, 800-dən çox insan artıq yerləşib. İlin sonuna qədər burada təqribən 2 minə yaxın insan yaşayacaq. Böyük Qayıdış Proqramımızın birinci mərhələsinin sonunda - 2026-cı ilin sonunda 22 min insan Füzuli rayonunda yaşayacaq”,*** - deyə dövlətimizin başçısı vurğulayıb.

# “Füzulinin timsalında, eyni zamanda bütün dünya görməlidir ki, erməni vəhşiliyi nədən ibarətdir”

“Füzulinin timsalında, eyni zamanda bütün dünya, hətta bunu görmək istəməyənlər görürlər və görməlidirlər ki, erməni vəhşiliyi nədən ibarətdir”.
Bu barədə Prezident İlham Əliyev oktyabrın 17-də “Füzuli Şəhəri Günü”ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib.
Dövlətimizin başçısı qeyd edib: ***“Biz uzun illər Qarabağ dərdimizin həqiqətlərini dünya birliyinin diqqətinə çatdırmağa çalışanda bəziləri inanmırdı, elələri də var idi ki, inanmaq istəmirdi. Bizim əlimizdə o qədər də böyük sübutlar yox idi. Biz bilirdik ki, hər şey dağıdılıb, viran qoyulub, ancaq bu dərəcədə hətta biz təsəvvür edə bilmirdik. Çünki işğalçı dövlət heç kimi o vaxt bu bölgəyə buraxmırdı, qadağan etmişdi. Nə üçün? Çünki buraya gələn hər bir insan görəcəkdi, erməni vəhşiliyi nədən ibarətdir. Onun təzahürləri hər yerdə görünür”.***

# “Dövlətin nə qədər gücü olsa da, Qələbəni əldə edən əsgərdir, zabitdir”

Prezident İlham Əliyev vurğulayıb ki, dövlətin nə qədər gücü olsa, nə qədər silahı olsa, nə qədər düzgün hərbi əməliyyatlar planlaşdırılsa da, Qələbəni əldə edən əsgərdir, zabitdir.
Bu sözləri Prezident İlham Əliyev oktyabrın 17-də *“Füzuli Şəhəri Günü”ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə deyib. “O (əsgər, zabit – red.) gedir, o, sinəsini qabağa verir, o, ölümə gedir və Bayrağı da qaldıran odur. Onların qəhrəmanlığı bizim yaddaşımızdan heç vaxt silinməməlidir və silinməyəcək”,* - deyə dövlətimizin başçısı vurğulayıb.

# “Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarındakı bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 7 milyard dollar vəsait ayrılıb”

“44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər və 1 günlük lokal antiterror tədbirlərinin uğurlu nəticəsi 30 ildən artıq müddətdə Ermənistanın işğal altında saxladığı ərazilərimizin qapılarını Böyük Qayıdışa açmışdır”.




Bunu Bakıda keçirilən “Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətin 20 ili” mövzusunda konfransda çıxışı zamanı Baş nazir Əli Əsədov deyib.
***“Bu tarixi hadisələrin əhəmiyyəti milli inkişafımızın yeni bir mərhələsinin başlanması ilə əlamətdardır. Qələbədən sonrakı 3 il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarındakı bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 7 milyard ABŞ dolları vəsait ayrılmışdır. Böyük Qayıdışa dair I Dövlət Proqramı qəbul edilmiş və uğurla icra edilir. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir”,*** - deyə Əli Əsədov diqqətə çatdırıb.

# “Ötən 20 il milli dövlətçiliyimizin ən parlaq səhifəsinə çevrilib”

“Tam əminliklə demək olar ki, tarixi kontekstdə qısa dövr olsa da, bu 20 il ölkəmizin qarşısında duran strateji hədəflərə nail olunması, cərəyan edən proseslərin, baş vermiş hadisələrin zənginliyi, ən əsası, əldə edilmiş nəticələr baxımından müstəsna əhəmiyyət kəsb edən və çoxəsrlik milli dövlətçiliyimizin ən parlaq səhifəsinə çevrilmiş yeni bir mərhələdir”.
Bunu Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev dövlətimizin başçısı İlham Əliyevin birinci müddətə Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyi münasibətilə Bakıda keçirilən “Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətin 20 ili” mövzusunda konfransda çıxışı zamanı deyib.
Samir Nuriyev bildirib ki, Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 2003-2023-cü illər çoxəsrlik milli dövlətçilik tariximizə bənzəri olmayan qızıl dövr kimi düşmüş, əsrlərlə bölünmüş, ağır məhrumiyyətlərə məruz qalmış, amma öz qürurunu və milli dövlətçilik ənənələrini qoruyub saxlamış Azərbaycan xalqının həyatında silsilə qələbələr, misli görünməmiş yüksəliş və tərəqqi illəri olmuşdur.
“Məhz buna görədir ki, ötən dövr ərzində keçirilmiş 4 prezident seçkisində Azərbaycan xalqı öz gələcəyini yalnız Prezident İlham Əliyevə etibar edib. Xalqımız hər zaman Prezident İlham Əliyevə dəstək olur, ətrafında sıx birləşərək ardınca irəliyə doğru addımlayır”, - deyə Prezident Administrasiyasının rəhbəri əlavə edib.



# Milli intibahımızın baş memarı

***Azərbaycan xalqı xüsusən son 3 ildə özünün müstəqillik və müasir dövlətçilik tarixinin ən qürurverici mərhələsinə qədəm qoyub. 2020-ci ilin Vətən müharibəsində torpaqlarımızın 30 illik işğalına son qoyuldu, ərazi bütövlüyümüz bərpa edildi. 44 gün davam edən savaşda xalqımız özünün beynəlxalq hüquqla təsbit edilmiş hüquqlarını təmin etdi.***





2023-cü ilin sentyabr ayında isə Vətən müharibəsinin məntiqi davamı olaraq Azərbaycan dövləti tarixi torpaqlarımız olan Qarabağda suverenliyini təmin etdi, erməni separatizminə həmişəlik son qoydu. Ordumuzun həyata keçirdiyi bu antiterror tədbirlərinin uğurlu nəticəsi hər birimizə sonsuz qürur yaşatdı, fərəhləndirdi. Bununla torpaqlarımızda xarici qüvvələrin təsiri ilə reallaşdırılması planlaşdırılan 200 illik saxta erməni layihəsinə son qoyuldu. Qarabağda ikinci erməni dövləti yaratmaq xülyası status iddiaları kimi birdəfəlik tarixin zibilliyinə göndərildi.

Azərbaycan dövlətinin bu tarixi uğurlarının memarı isə Prezident İlham Əliyev cənablarıdır. Olduqca xoşdur ki, Prezident İlham Əliyevin respublikamıza müdrik rəhbərliyinin 20-ci ilinin tamamını bu cür möhtəşəm qələbələrlə qarşılayırıq…

2003-cü ilin 15 oktyabrında xalqımızın milli iradəsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyev həyata keçirdiyi çoxşaxəli inkişaf prosesləri, ölkəmizə və xalqımıza qazandırdığı parlaq nailiyyətlərlə bu 20 ili Azərbaycan həyatında əsl intibah tarixinə çevirməyə müvəffəq olmuş, tarixin ən qüdrətli Azərbaycanını cari strateji dövrün böyük hədəflərinə yetirmiş, ölkəmizin gələcəyi üçün möhkəm təməllər formalaşdırmışdır.

**Heydər Əliyevin ən təcrübəli və layiqli siyasi davamçısı**

Dövlətlərin və xalqların tarixinin yazılmasından başlamış, dünya birliyində özünə layiqli yer tutmasının və tanınmasının zamanın süzgəcindən keçərək, özünü doğruldan aydın şərtləri var. Tarix həmin şərtləri dönə-dönə sübut edərək göstərir ki, dövlətlərin və xalqların inkişafı, yüksəlişi üçün onun malik olduğu maddi və mənəvi zənginliklər vacib olsa da, yetərli sayıla bilməz. Bu baxımdan onların taleyində lider amilinin bütün şərtlərin fövqündə dayanması ən mühüm siyasi reallıqdır.

Bu il anadan olmasının 100-cü ildönümünü böyük sevgi ilə qeyd etdiyimiz ulu öndər Heydər Əliyevin adı hər zaman məhz belə liderlərin cərgəsində çəkiləcək. Azərbaycanın yüksəlişini, beynəlxalq miqyasda qazandığı nüfuzu qiymətləndirərkən ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı əvəzsiz xidmətləri hər birimizin gözü önündə canlanır. Ulu öndər tərəfindən görülən böyük işlərin, onun həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyalarının məntiqi nəticəsidir ki, bu gün xalqımız demokratik və hüquqi dövlətdə yaşamaq imkanı əldə etmiş, xoşbəxt gələcəyi üçün bütün təminatları yaratmışdır. Azərbaycanın indiki sürətli yüksəlişinin təməlində məhz Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası dayanır.

Dahi şəxsiyyətin böyüklüyü həm də ondadır ki, ulu öndər yalnız Azərbaycanın davamlı inkişaf strategiyasının möhkəm təməlini qoymaqla kifayətlənməmiş, cənab İlham Əliyevin timsalında bu strateji kursu davam etdirməyə qadir istedadlı, praqmatik və rasional təfəkkürlü, xalqını, dövlətini sevən, yüksək idarəçilik keyfiyyətlərinə malik siyasi davamçı və lider də yetişdirmişdir. Ötən 20 ildə keçdiyimiz inkişaf yolu da təsdiq edir ki, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyev sayılıb-seçilən, öz xalqının milli maraqlarını hər zaman təmin etməyi bacaran liderlər sırasındadır və bunu biz yox, xarici siyasi və iqtisadi institutlar da təsdiq edirlər.

Amma bu da həqiqətdir ki, İlham Əliyevin Azərbaycanın siyasi həyatında özünün yüksək siyasi-diplomatik və liderlik keyfiyyətləri ilə fərqlənməsi, öz fəaliyyətində dövlətimizin milli maraqlarını hər şeydən uca tutması, respublikamızda və onun hüdudlarından kənarda nüfuzlu siyasətçi kimi tanınması hələ prezident seçilməsindən çox-çox əvvələ təsadüf edir.

Bu baxımdan cənab İlham Əliyev hələ Azərbaycana rəhbərlik etməmişdən əvvəl də ölkəmizin siyasi və iqtisadi həyatında, beynəlxalq münasibətlərində çoxsaylı uğurların müəllifi olmuşdur. Məsələn, ulu öndər Heydər Əliyevin liderliyi ilə aparılan neft danışıqları Azərbaycanın müstəqillik tarixinin ən mühüm hadisələri sırasında dayanır. İlham Əliyevin yaxından iştirakı ilə aparılan danışıqların nəticəsi olaraq imzalanan «Əsrin müqaviləsi» Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində, iqtisadi inkişafın təmin edilməsində, respublikamızın beynəlxalq mövqelərinin möhkəmlənməsində tarixi rol oynadı və bu gün də dövlətimiz və xalqımız «Əsrin müqaviləsi»nin bəhrəsini görür. Bütövlükdə, ulu öndər Heydər Əliyevin Azərbaycanın zəngin neft və qaz yataqlarının işlənilməsi istiqamətində müəyyən etdiyi strateji məqsədlərə respublikamız İlham Əliyevin işgüzar keyfiyyətləri sayəsində qətiyyətlə nail oldu.

**Heydər Əliyev: Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm**

2003-cü ilin prezident seçkiləri vaxtı ulu öndər Heydər Əliyevin təklifi və təşəbbüsü ilə Yeni Azərbaycan Partiyası tərəfindən cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsində də onun malik olduğu yüksək siyasi keyfiyyətlər, Baş nazir kimi qısa müddətdə nail olduğu uğurlar, idarəçilikdəki novatorluğu, xarizması, cəmiyyətdə və qlobal miqyasdakı yüksək nüfuzu mühüm rol oynamışdı. Ona görə Heydər Əliyev İlham Əliyevə özü qədər inanırdı.

2003-cü il oktyabrın 1-də ulu öndər Heydər Əliyev xalqımıza müraciətində deyirdi: ***"Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".***

Həmin ilin oktyabr ayının 15-də keçirilən prezident seçkilərində xalqımız İlham Əliyevin ətrafında sıx səfərbər olmaqla ilk növbədə Heydər Əliyev yolunun davamına səs verdi. Çünki cəmiyyətimiz yaxşı bilirdi ki, Əliyev siyasi kursunun davamı xalqımızın və dövlətimizin etibarlı və firavan gələcəyi deməkdir. Odur ki, Azərbaycan xalqı ilk dəfə 2003-cü ildə cənab İlham Əliyevə etimad göstərməklə Heydər Əliyev siyasi kursunun davam etdirilməsinə, Azərbaycanın dünya birliyində özünə layiqli yer tutaraq söz sahibinə çevrilməsinə, Qafqazdakı lider rolunun möhkəmlənməsinə, xoşbəxt və firavan gələcəyinə səs verdi.

Bu günlərdə cənab İlham Əliyevin ilk dəfə Azərbaycan prezidenti seçilməsinin 20 ili tamam olur. Bir dövlətin tarixi baxımından 20 il kiçik zaman kəsiyidir. Lakin bu 20 ildə Azərbaycan dövləti o qədər möhtəşəm inkişaf yolu keçib ki, ölkəmizlə qürur duya bilərik.

2003-cü ildə prezident kimi Vətənə və xalqa sədaqət andı içən Prezident İlham Əliyev ölkəmizin inkişaf perspektivləri və gələcək prioritetlərlə bağlı öz proqramını bəyan edərək demişdi: ***"Azərbaycan gələcəkdə çox zəngin və qüdrətli ölkəyə çevriləcəkdir. Neft strategiyasını davam etdirərək, qısa müddət ərzində ölkəmizi hərtərəfli inkişaf etdirəcəyik. Xüsusilə qeyri-neft sektoruna böyük diqqət göstəriləcəkdir. Yeni zavodlar, fabriklər istifadəyə veriləcəkdir. Sahibkarlığın inkişafı üçün tədbirlər planı, Azərbaycanda iqtisadi inkişaf proqramı hazırlanır. Bu çoxşaxəli inkişaf proqramı Azərbaycanı qısa müddət ərzində zəngin dövlətə çevirməyə imkan verəcəkdir. Bizdə bütün imkanlar – təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik".***

Bəli, ötən 20 ildə Azərbaycanın keçdiyi inkişaf yolu ilk növbədə ulu öndər Heydər Əliyevin nə qədər müdrik və uzaqgörən şəxsiyyət olduğunu təsdiq edir. Və bu 20 ildə Azərbaycanın əldə etdiyi bütün uğurlar ondan xəbər verir ki, Prezident İlham Əliyev ilk dəfə dövlət başçısı kimi and içərkən verdiyi bütün vədləri layiqincə yerinə yetirir, qarşıya qoyduğu bütün milli hədəflərə inamla çatır. Ötən 20 ilin reallıqları Heydər Əliyev siyasi kursunun diktə etdiyi sülh, sabitlik və tərəqqi yolunun alternativsizliyini sübuta yetirmiş, inam və etimad üzərində qərarlaşan, gələcəyə hesablanan güclü dövlət konsepsiyası ilbəil uğurla gerçəkləşdirilmişdir. Geridə qoyduğumuz hər bir ilin yekunları təsdiq edir ki, Prezident İlham Əliyev ulu öndərin ən layiqli davamçısı olaraq onun başladığı, təməlini qoyduğu taleyüklü işləri ardıcıl surətdə və qətiyyətlə irəli aparır, ölkəmizin şərəfli tarixini yazır. Məhz Heydər Əliyevin dühasından və qüdrətli zəkasından ilham alan milli inkişaf strategiyası Azərbaycanın müstəqillik və inkişaf yolunda inamla addımlamasını təmin edir.

**Beynəlxalq miqyaslı enerji layihələrinin reallaşması İlham Əliyevin ölkə prezidenti kimi fəaliyyətinin mühüm siyasi-iqtisadi hadisələridir**

Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyinin ən böyük uğurlu göstəricilərindən biri iqtisadi sahədə baş verən tarixi dəyişikliklər, sürətli və hərtərəfli inkişafdır. 30 il əvvəl hərbi-siyasi burulğanlardan keçən, hətta müstəqilliyini itirmək təhlükəsi qarşısında qalan Azərbaycan indi siyasi və makroiqtisadi baxımdan sabit, davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə, etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınır. Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf etməkdə olan, bölgənin əsas iqtisadi potensialına sahib qüdrətli dövləti də məhz Azərbaycandır. Prezident İlham Əliyev isə çox qısa müddətdə bütün sahələrin inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirməklə Azərbaycanın ən yeni tarixinə qızıl hərflərlə yazılan iqtisadi uğurların müəllifinə çevrilib.

İqtisadiyyatda uğurlara nail olmaq üçün isə bir sıra strateji məqsədlərə nail olundu ki, bunlardan da ən mühümü Heydər Əliyevin əsasını qoyduğu enerji siyasətinin davam etdirilməsidir. Məlumdur ki, müstəqillik dövründə xalqımızın nail olduğu ən böyük uğurlardan biri ümummilli lider Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının təntənəsi və Azərbaycan dövlətinə gətirdiyi siyasi və iqtisadi dividendlərdir. 1993-cü ilin ortalarına qədər bir-birini əvəzləmiş iqtidarların neft-qaz siyasətindən kəskin fərqlənən bu strategiyanın əsas mahiyyəti onun Azərbaycan dövlətinin və xalqının milli maraqları ilə uzlaşması idi. Məhz bu strategiyasının uğurla reallaşmasının nəticəsi olaraq dünyanın aparıcı neft şirkətləri Xəzərin Azərbaycan sektorunda neft hasilatına cəlb olundular.

Ulu öndər Heydər Əliyevin Azərbaycana ikinci dəfə rəhbərliyə başladıqdan sonra nail olduğu ən böyük uğurlardan biri «Əsrin müqaviləsi»nin imzalanması idi. Cənab İlham Əliyevin də prezident kimi ilk uğurlarından biri enerji məsələləri ilə bağlı idi. Belə ki, 2006-cı il iyulun 13-də Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi Prezident İlham Əliyevin əsası Heydər Əliyev tərəfindən müəyyən edilmiş enerji siyasətini qətiyyətlə davam etdirməsinin nəticəsi idi. BTC-nin və Bakı-Tbilisi Ərzurum qaz kəmərinin işə düşməsindən sonra karbohidrogen ehtiyatlarının nəqli ilə bağlı regionda tamamilə yeni vəziyyət yarandı. Yəni, Xəzərin karbohidrogen ehtiyatları ilk dəfə olaraq alternativ yollarla dünya bazarlarına çıxarılmağa başladı ki, bu da Azərbaycanın enerji siyasətinin həm də müstəqil olmasından xəbər verdi. Bu enerji layihələrinin işə düşməsi 2006-cı ildən bəri Azərbaycana milyardlarla dollar gəlir gətirib. Bu illər ərzində Azərbaycanın iqtisadi inkişafında məhz həmin gəlirlər əhəmiyyətli dərəcədə rol oynamışdır. Azərbaycanın İlham Əliyevin rəhbərliyi ilə bugünkü inkişafının təməlində də məhz neft strategiyasının uğurları dayanır.

*"...Azərbaycanda iqtisadiyyat hərtərəfli inkişaf etməlidir. Düzdür, neft amili uzun illər ərzində hələ həlledici rola malik olacaqdır. Bu da təbiidir. Çünki qoyulan sərmayələr çox böyükdür və gələcəkdə gözlənilən mənfəətlər də çox böyükdür. Amma, eyni zamanda əgər biz bu gün iqtisadiyyatımızın hərtərəfli inkişafına nail olmasaq, bu, ölkəmizi gələcəkdə çətin problemlərlə üz-üzə qoya bilər. Ona görə məqsədimiz budur ki, Azərbaycanda iqtisadiyyat hərtərəfli inkişaf etsin, təkcə Bakıda yox, bütün regionlarda bu inkişaf müşahidə olunsun. Mən əminəm ki, bu belə də olacaqdır".*

***İlham ƏLİYEV***

Xəzər dənizinin Azərbaycana aid hissəsi təkcə neftlə deyil, təbii qazla da zəngindir. 2010-cu ildə Azərbaycan neftçiləri və mütəxəssisləri tərəfindən "Ümid" yatağının, 2011-ci ildə isə "Abşeron" blokunda böyük qaz yatağının aşkarlanması Azərbaycanın həm də böyük təbii qaz potensialına malik olduğunu göstərdi. 2013-cü ilin sonlarında isə "Şahdəniz" yatağının işlənilməsinin ikinci mərhələsinə dair yekun investisiya qərarı imzalandı. "Şahdəniz-2" layihəsi isə Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsinə xidmət etməklə TANAP və TAP qaz boru kəmərlərinin tikintisi ilə bağlı təşəbbüslərin reallaşmasına təkan verdi, nəticə etibarilə 2014-cü il sentyabrın 20-də Cənub Qaz Dəhlizinin təməli qoyuldu.

Cənub Qaz Dəhlizi ilk günündən Prezident İlham Əliyevin siyasi və iqtisadi iradəsinə söykəndi. O zamanlar Cənub Qaz Dəhlizinin ərsəyə gəlməsi xəyal kimi görünə bilərdi. Çünki hələ 1994-cü ildə «Əsrin müqaviləsi» imzalananda bəziləri onun gələcəyinə inana bilmirdilər. Azərbaycan prezidenti Avropa İttifaqını, ayrı-ayrı dövlətləri, beynəlxalq maliyyə qurumlarını bu layihənin ətrafında səfərbər etdi. Avropa İttifaqı bununla bağlı ilk gündən Azərbaycanın təşəbbüslərini dəstəklədi, Xəzərdən hasil olunan təbii qazın Avropaya çatdırılması üçün ölkəmizlə əməkdaşlığa həvəslə qoşuldu. Cənub Qaz Dəhlizi üzrə Azərbaycan və Gürcüstanda həyata keçirilən layihələr 2018-ci ilin mayında başa çatdırıldı. 2018-ci ilin may ayında Bakıda Cənub Qaz Dəhlizinin, iyun ayında isə Türkiyənin Əskişəhər şəhərində dəhlizin mühüm hissəsi olan TANAP qaz boru kəmərinin açılışı oldu. 30 iyun 2018-ci ildə ilk kommersiya qazının TANAP vasitəsilə Türkiyəyə göndərilməsinə başlanıldı. 30 noyabr 2019-cu ildə TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirildi. 2020-ci ilin sonunda Trans-Adriatik Boru Kəməri (TAP) layihəsinin yekunlaşdırılması ilə Cənub Qaz Dəhlizinin inşası tam başa çatdırıldı. Bundan sonra 2020-ci il dekabrın 31-də Azərbaycanın müasir tarixinin növbəti əlamətdar hadisələrindən biri baş verdi: həmin gün Azərbaycanın "Şahdəniz" yatağından hasil olunan təbii qaz Avropaya çatdırıldı. Bu, Vətən müharibəsindəki şanlı Zəfərdən sonra xalqımızı və dövlətçiliyimiziyi şərəfləndirən növbəti tarixi uğur idi.

Beləliklə, Prezident İlham Əliyevin qətiyyətli siyasətinin nəticəsi kimi Azərbaycanın "Şahdəniz" yatağından hasil olunan təbii qazı təxminən 3500 kilometr qət edərək, tarixdə ilk dəfə 2020-ci il dekabrın 31-də Avropaya çatdırıldı. Bəzilərinin vaxtı ilə mümkünsüz hesab etdiyi, 3500 kilometr uzunluğunda, bir-birinə bağlanan üç qaz boru xəttinin inşası reallığa çevrildi. İlham Əliyevin müdrikliyi və siyasi iradəsi, layihə iştirakçıları arasında düzgün koordinasiyanın təşkili, beynəlxalq maliyyə insitutları ilə əməkdaşlıq, Avropa İttifaqının siyasi dəstəyinin təmin olunması bu layihənin hər bir mərhələsinin uğurla tamamlanmasını təmin etdi.

Bütövlükdə isə reallaşan bütün enerji layihələri cənab İlham Əliyevin ölkə prezidenti olaraq fəaliyyətinin mühüm siyasi-iqtisadi hadisələri kimi ötən dövrdə həm Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsində, həm də strateji tərəfdaşlarının sayının artmasında böyük rol oynamaqdadır. Bu uğurları ilə ötən 20 ildə Avrasiyanın enerji xəritəsinə ciddi korrektələr edən Azərbaycan artıq qlobal enerji təhlükəsizliyi dialoqunun söz sahibi olan tərəf kimi tanınır.

***(davamı gələn sayımızda)***

***Akademik
Ziyad Səmədzadə***

# «Первый градостроительный проект мы реализуем в Физули»



Все наши города будут такими, как Физули, потому что потому что наш первый градостроительный проект реализуется в Физули.
Об этом, в частности, заявил Президент Ильхам Алиев на состоявшейся 17 октября встрече с жителями, переселившимися в город Физули, и представителями общественности района в «День города Физули».
«Правда, лачинцы вернулись в родные края несколько раньше, чем физулинцы. Но поскольку армяне проводили незаконное заселение в городе Лачин, часть зданий там осталась, и мы лишь восстановили эти дома, создав прекраснейшие условия. Таким образом, была обеспечена сохранность прежнего градостроительного ландшафта Лачина. Здесь же город полностью перестраивается», - подчеркнул глава государства.

# «В конце 2026 года в Физулинском районе будут проживать 22 тысячи человек»

Физули сейчас полностью перестраивается. Вчера, находясь здесь, мы заложили фундамент нескольких важных объектов. Были заложены фундаменты двух сел, детского сада, спортивного комплекса, новых жилых кварталов, административного центра.
Об этом, в частности, заявил Президент Ильхам Алиев на состоявшейся 17 октября встрече с жителями, переселившимися в город Физули, и представителями общественности района в «День города Физули».
«То есть по прошествии месяцев и число проживающих здесь людей, естественно, будет увеличиваться. Вчера мне сообщили, что уже размещено более 800 человек. До конца года здесь будут жить около 2 тысяч человек.
По итогам реализации первого этапа нашей Программы «Великого возвращения» - в конце 2026 года в Физулинском районе будут проживать 22 тысячи человек», - подчеркнул глава государства.

# Азербайджан и Китай подписали меморандум о взаимопонимании в сферах электроэнергетики



Министр энергетики Азербайджана Парвиз Шахбазов, находящийся с визитом в Китае в рамках форума международного сотрудничества «Один пояс, один путь», встретился с главой Национальной энергетической администрации Китая Чжан Цзяньхуа.
Согласно данным министерства энергетики Азербайджана, в ходе встречи был подписан «Меморандум о взаимопонимании между министерством энергетики Азербайджанской Республики и Национальной энергетической администрацией Китайской Народной Республики» в целях содействия развитию сотрудничества в сферах электроэнергетики, нефти и газа, нефтехимической и возобновляемой энергетики и увеличения инвестиций в энергетические проекты.
Меморандум предусматривает расширение двусторонних отношений в энергетической сфере обеих стран, сотрудничество в области применения новых технологий, обновление энергетической инфраструктуры, стимулирование взаимных инвестиций и деловой активности, обмен опытом в сфере возобновляемых источников энергии, а также проведение совместных конференций, форумов и тренингов.

# На ярмарке в Баку выставлено на продажу около 3 тонн меда из Карабаха и Восточного Зангезура

На 23-й Республиканской выставке-ярмарке продуктов пчеловодства выставлено на продажу около 3 тонн меда из Карабахского и Восточно-Зангезурского экономических районов, сообщает Trend.
Согласно данным министерства сельского хозяйства Азербайджана, больше всего пчеловоды привезли на ярмарку цветочного меда.
250 пчеловодов, представляющих все экономические районы Азербайджана, привезли на продажу 57,6 тонны цветочного и 20,5 тонны липового меда.
Цветочный и липовый мед составляет 80% продукции пчеловодства, выставленной на продажу на ярмарке.
Кроме того, пчеловоды реализовали 2,9 тонны тернового меда, 2,7 тонны майского, 3,6 тонны лесного, 705 кг горного и 120 кг солодкового меда.
На ярмарке также можно приобрести косметику из травяного меда, каштанового меда, а также из прополиса, подмора и других продуктов пчеловодства.



# В Карабахе количество радиостанций на солнечной энергии достигнет более 30




Об этом сказала директор департамента по связям с партнерами ООО «Azercell Telecom» Нигяр Шихлинская на пресс-конференции, посвященной «Каспийской строительной неделе».
«Инфраструктура мобильной сети построена с нуля в Карабахе. На данный момент там имеется более 125 баз радиостанций», - отметила она.
Кроме этого, Azercell ввел еще одну инновацию для защиты окружающей среды.
«К концу этого года планируется достичь количества более 30 радиомобильных станций, работающих на солнечной энергии», - добавила Нигяр Шихлинская.
Таким образом, мобильная сеть, проведенная в Карабахе, отвечает всем мировым стандартам и соответствует экологическим требованиям.

# Азербайджан свернул армянство как политический проект



Кандидат в президенты США Вивек Рамасвами, выступивший с провокационными заявлениями против Азербайджана, является радикальным голосом бывшего президента США Дональда Трампа.
Об этом сказал известный российский политолог, телеведущий и общественный деятель Максим Шевченко.
"Это человек, который помогает Трампу и республиканцам, которые стоят за Трампом, вернуться к власти. Они радикальные либералы. У нас под либералами часто имеются в виду выступающие за нетрадиционные формы жизни люди, но это не так. Либерализм гораздо глубже. Республиканская Америка - это штаб-квартира мирового либерализма.
И она никогда не простит Азербайджан, который уничтожил политический проект армянства. США стоит во главе этого глобального либерального империалистического сообщества, а на вторых ролях здесь находится Франция", - отметил он.
По его словам, Азербайджан с 2020 года по 2023 год свернул армянство как политический проект, выходящий за рамки микроскопического государства.
"США и Франция будут продолжать атаковать Азербайджан, который стал для них врагом. Потому что Азербайджан смог сделать то, что не мог сделать кто-либо другой", - добавил политолог.
Отметим, что на днях кандидат в президенты США Вивек Рамасвами выступил с обвинениями в адрес Азербайджана и в качестве так называемого доказательства продемонстрировал кадры армянской атаки на Гянджу и на Барду.

## В Мире

# Израильская армия нанесла удары по военным объектам в Газе

Армия обороны Израиля (ЦАХАЛ) нанесла ночью удары по более чем 200 военным объектам в секторе Газа.
Информацию об этом распространила пресс-служба ЦАХАЛ.
Отмечается, что кроме этого, израильские истребители нанесли удары по штаб-квартире ХАМАС, в результате чего был ликвидирован представитель движения.
Отметим, что 7 октября на Израиль была совершена комбинированная атака. С начала с территории сектора Газа начался массированный обстрел реактивными снарядами, затем последовало проникновение боевиков по земле, воде и воздуху. В результате число погибших превысило 1 400 человек, более 3 300 получили ранения. На территории разрушено более 1 300 зданий.

# Отказ Пашиняна от участия на саммите СНГ является осознанным антироссийским шагом

Отказ премьер-министра Армении Никола Пашиняна участвовать на саммите Совета глав государств СНГ, который прошел в Бишкеке, является осознанным антироссийским шагом Еревана.
Об этом сказал в субботу Trend генеральный директор Каспийского института стратегических исследований (Россия) Игорь Коротченко.
«Мы видим сегодня ухудшение, фактически до нуля градуса, российско-армянских контактов. Эта тенденция обозначена уже на протяжении достаточно долгого времени. Она является устойчивым курсом по развороту Армении на Запад, встраивание в западные структуры безопасности и попытки Еревана втащить на территорию Южного Кавказа иностранные военные контингенты стран, которые не представлены в регионе.
В частности, речь идет о попытках втащить сюда военную или наблюдательную миссию ЕС, а также военный контингент Франции под неким миротворческим мандатом. Хотя произошедшие за последние недели события привели к тому, что Азербайджан полностью восстановил свой суверенитет над Карабахом, тем не менее мы видим, что попытки Армении в глобальной игре против Азербайджана по-прежнему продолжаются», - отметил он.
По его словам, одновременно Армения демонстрирует свой злобный оскал в отношении Российской Федерации.
«Конечно, могу сказать, что все мы объективно заинтересованы в скорейшем заключении мирного соглашения между Азербайджаном и Арменией, где Армения и Азербайджан, признав территориальную целостность друг друга, могли бы провести процесс делимитации и демаркации государственной границы, разблокировать транспортные коммуникации, включая и Зангезурский коридор (пункт 9 трехстороннего заявления от 10 ноября 2020 года, под которым стоит подпись Пашиняна).
Все эти позитивные процессы приведут к становлению Южного Кавказа регионом мира, сотрудничества и экономического процветания. Безусловно, движение по этому пути не будет легким, но я абсолютно убежден, что, в конечном итоге, все цели, которые ставят перед собой Россия и Азербайджан, будут реализованы. Наша общая задача сделать так, чтобы Армения встала на путь демилитаризации, мирного развития и навсегда прекратила выдвигать территориальные претензии к соседним государствам», - добавил Коротченко.
Напомним, что премьер-министр Армении Никол Пашинян отказался принять участие в саммите СНГ в Бишкеке. В телефонном разговоре с президентом Кыргызстана Садыром Жапаровым он сообщил, что не сможет принять участие в мероприятии.

# “Ermənistan regional əməkdaşlıq və qonşularına qarşı qanunsuz və əsassız ərazi iddiaları arasında seçim etməlidir”



*“Vətən müharibəsində əldə edilən böyük qələbə, lokal antiterror tədbirlərindən sonra suverenliyimizin tam bərpası bölgədə yeni reallıqlar yaradıb. İndi Ermənistan regional əməkdaşlıq və qonşularına qarşı qanunsuz və əsassız ərazi iddiaları arasında seçim etməlidir”.*

Bunu dövlət başçısı İlham Əliyevin birinci müddətə Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyi münasibətilə Bakıda keçirilən “Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətin 20 ili” mövzusunda konfransda çıxışı zamanı xarici işlər naziri Ceyhun Bayramov deyib.

Nazir bildirib ki, bu məsələdə beynəlxalq ictimaiyyətin də rolu böyük əhəmiyyətə malikdir. “Ermənistanın revanşist cəhdlərinin hər hansı bir şəkildə dəstəklənməməsi, bu bölgənin rifahı üçün sülhün alternativinin olmaması dair çağırışların edilməsi olduqca vacibdir”, - deyə o əlavə edib.

# “Son 20 ildə Bakıda çoxlu yaşayış kompleksləri, hotellər tikilib, xəstəxanaların sayı 2 dəfə artırılıb”

***“Bakı keyfiyyətcə dəyişib, dinamik inkişaf edir və bu gün dünyada fərqlənən brendə çevrilib”.***

Bunu dövlət başçısı İlham Əliyevin birinci müddətə Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyi münasibətilə Bakıda keçirilən “Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətin 20 ili” mövzusunda konfransda çıxışı zamanı Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov deyib.



O qeyd edib ki, son 20 ildə şəhərdə çoxlu yaşayış kompleksləri, hotellər tikilib, xəstəxanaların sayı 2 dəfə artırılıb:

**“Bu gün Bakı dünyanın ən tanınmış turizm mərkəzlərindən birinə çevrilib”.**

Bakının inkişaf edərək gözəlləşdiyini, müxtəlif layihələr icra olunduğunu bildirən E.Əzizov vurğulayıb ki, Prezidentin siyasəti nəticəsində insanların yaşayış səviyyəsi yüksəlib. **“İnsanlar artıq şəhərə qayğı ilə yanaşırlar”**, – deyə o bildirib.

# Suverenliyinin bərpa olunması Azərbaycanın qarşısında yeni inkişaf perspektivləri açıb

***“Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əzəli tarixi torpaqlarımızın Ermənistanın 30 illik işğalından qurtarılması, tarixi ədalətin, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması Azərbaycanın qarşısında yeni inkişaf perspektivləri açıb. Oktyabrın 15-də Prezident İlham Əliyevin Xankəndi, Ağdərə, Xocavənd, Xocalı şəhərlərində, Əsgəran qəsəbəsində Dövlət Bayrağını ucaltmasını bütün xalqımız böyük qürurla izlədi. Üç il öncə eyni duyğuları biz Şuşada, Laçında, Ağdamda, Kəlbəcərdə və digər şəhərlərdə bayrağımız yaşamışdıq”.***

Bu sözləri Milli Məclisin sədri Sahibə Qafarova parlamentin oktyabrın 17-də keçirilən plenar iclasında çıxışı zamanı deyib.

O bildirib ki, son 100 ildən artıq dövrdə Azərbaycan xalqı siyasi müstəqillik imkanına iki dəfə nail olub. 1918-ci il mayın 28-də qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşaya bilib. 1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa edən dövlətimiz üçün də əslində eyni tale yazılmışdı. Ötən əsrin 90-cı illərinin əvvəlləri ölkəmizin ağır problemlər qarşısında qaldığı bir dövrdür. O zaman hakimiyyətə gəlmiş iqtidar cəmi bir il ərzində Azərbaycanı siyasi, iqtisadi və hərbi böhran vəziyyətinə salmışdır. Ölkə vətəndaş müharibəsi və dağılmaq həddinə gəlib çıxmışdı. Bütün bunlar Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına əlverişli şərait yaradırdı. 100 minlərlə soydaşımız doğma yurdlarını tərk etməyə məcbur olurdu.

Sahibə Qafarova qeyd edib ki, müstəqil Azərbaycan dövlətinin iflasa uğraması təhlükəsi tam real idi. Taleyin hökmü ilə bu dəfə Heydər Əliyev fenomeni dövlət müstəqilliyinin itirilməsinə yol verməbdi. 1993-cü il iyunun 15-də Ali Dövlət rəhbərliyinə qayıdan Ümummilli Lider qüdrətli zəkası və müdrikliyi, yenilməz iradəsi və qətiyyəti sayəsində Azərbaycanın siyasi varlığını qoruyub saxlaya bildi. Xalqımız müstəqil dövlətini qorumaq və yaşatmaq üçün tarixin verdiyi imkanı Heydər Əliyevin xilaskarlıq missiyası sayəsində reallaşdıra bildi. Ümummilli Lider dünyanın böyük güclərinin iradəsinə qarşı çıxaraq Azərbaycan üçün hazırlanmış planları alt üst etdi, xalqımızı və dövlətimizi qorxunc təhlükələrdən keçirərək sabitlik və inkişaf dövrünə çatdırdı və bugünkü müasir Azərbaycan Heydər Əliyevin xalq və Vətən naminə fədakarlığının parlaq nişanəsidir.

***“Ümummilli Liderin inkişaf strategiyasını yeni çağırışlar şəraitində yaradıcı surətdə davam etdirən Prezident İlham Əliyevin daxili və xarici siyasəti ölkəmizə heyrətamiz uğurlar gətirib. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 20 il ərzində Azərbaycan dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxıb. Cəmiyyət və dövlət həyatının bütün sahələrində yeniləşmə və yüksəliş dövrü yaşanıb. Dövlət idarəçiliyi sistemi təkmilləşdirilib, Birinci vitse-prezident institutu təsis edilib. Prezidentin ən yaxın silahdaşı olan görkəmli siyasi və dövlət xadimi Mehriban Əliyeva bu məsul və şərəfli vəzifəni layiqincə yerinə yetirir”***, - deyə Milli Məclisin sədri vurğulayıb.

# “KAPİTAL SECURİTY” QSC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HESABATI

| | Qeyd | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Əmlak və avadanlıqlar (Əsas vəsaitlər) | 6 | 138 824,06 | 16 525,42 |
| Qeyri-maddi aktivlər | 3 | 2 600,00 | |
| Verilmiş borclar | | | |
| Uçota alınmış investisiyalar | | | |
| Təxirə salınmış vergi aktivləri | | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | **141 424,06** | **16 525,42** |
| ***Qısamüddətli aktivlər*** | | | |
| Ehtiyatlar | 10 | 26 136,33 | 7 747,69 |
| Qısamüddətli debitor borcları | 11 | 148 578,03 | 50 384,30 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 284 524,28 | 81 311,47 |
| Digər aktivlər | 14 | 12 119,60 | 5 918,80 |
| Sair qısamüddətli aktivlər | | | |
| Gələcək dövrün xərcləri | 14 | 7 800,00 | 7 800,00 |
| Sair qısamüddətli Maliyyə aktivləri | | | |
| **Cəmi qısamüddətli aktivlər** | | **479 158,24** | **153 162,26** |
| **CƏMİ AKTİVLƏR** | | **620 582,30** | **169 687,68** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| Nizamnamə kapitalı | 15 | 2 000,00 | 100,00 |
| Kapital ehtiyatları | | | |
| Hesabat dövrünün bölüşdürülməmiş xalis mənfəəti /zərəri | 26 | 78 849,24 | 30 330,35 |
| Əvvəlki illərin bölüşdürülməmiş xalis mənfəəti /zərəri | | 30 330,35 | - |
| **CƏMİ KAPİTAL** | | **111 179,59** | **30 430,35** |
| **Öhdəliklər** | | | |
| Uzunmüddətli öhdəliklər | 18 | 346 000,00 | 64 000,00 |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Gələcək dövrün gəlirləri | | | |
| Təxirə salınmış vergi öhdəlikləri | 18 | 22 664,45 | 7 685,74 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **368 664,45** | **71 685,74** |
| ***Qısamüddətli öhdəliklər*** | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Qısamüddətli borclar (alınmış avanslar) | | | |
| Qısamüdətli kreditor borcları | 17 | 52 323,87 | 14 394,56 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 16 | 88 414,39 | 53 177,03 |
| Sair qısamüdətli öhdəliklər | | | |
| **Cəmi qısa müddətli öhdəliklər** | | **140 738,26** | **67 571,59** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **509 402,71** | **139 257,33** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **620 582,30** | **169 687,68** |

| MƏNFƏƏT VƏ ZƏRƏRLƏR | Qeyd | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 19 | 2 094 480,64 | 483 235,40 |
| Satışın maya dəyəri | 22 | - 1 978 635,05 | - 439 701,60 |
| Ümumi mənfəət (zərər) | | 115 845,59 | 43 533,80 |
| Daşınmaz əmlakın icarəsindən gəlirləri | | | |
| Kommersiya xərcləri | | | |
| İnzibati xərclər | 22 | - 13 407,81 | - 4 496,69 |
| Sair əməliyyat xərcləri | | | |
| Əməliyyat mənfəəti (zərəri) | | 102 437,78 | 39 037,11 |
| Maliyyə gəlirləri | | | |
| Maliyyə xərcləri | | | |
| Fövqəladə gəlirlər | | | |
| Fövqəladə xərclər | | | |
| Vergidən azad olan gəlirlər üzrə xərclər | | | |
| Vergidən azad olan gəlirlər | | | |
| Gəlirdən çıxılan vergilər və yığımlar | 22 | - 524,28 | |
| Məzənnə fərqi | | | |
| Vergitutmadan əvvəl mənfəət (zərər) | | 101 913,50 | 39 037,11 |
| Keçmiş illərin zərərinə silinir | | - | - |
| Mənfəət üzrə azadolmalar və güzəştlər | | | - |
| Vergidən azad olan gəlirlər | | - | - |
| Vergiyə cəlb olunan mənfəət | 24 | 101 913,50 | 39 037,11 |
| Mənfəət vergisi xərci | 25 | - 23 064,26 | - 8 706,76 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 26 | 78 849,24 | 30 330,35 |
| Mənfəətdə iştirak payı: | | | |
| Səhmdarların payı | 26 | 509,57 | 390,37 |
| Səhmdarların payına düşən bir səhmin mənfəəti: | | | |
| Bir səhmin əsas mənfəəti | 26 | 394,25 | 303,30 |

| KAPİTALDA DƏYİŞİKLİKLƏR | Qeyd | Nizamnamə Kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| **31 dekabr 2020-ci il tarixə qalıq** | | - | | - | - |
| 2021-ci il üzrə xalis mənfəət | 26 | **100,00** | | 30 330,35 | **30 430,35** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | - |
| Elan edilmiş dividendlər | | | | | - |
| Maddələr arasında köçürmələr | | | | | - |
| **31 dekabr 2021-ci il tarixə qalıq** | | **100,00** | - | **30 330,35** | **30 430,35** |
| 2022-ci il üzrə xalis mənfəət | 26 | | | 78 849,24 | **78 849,24** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 15 | **1 900,00** | | | **1 900,00** |
| Elan edilmiş dividendlər | | | | | - |
| Maddələr arasında köçürmələr | | | | | - |
| **31 dekabr 2022-ci il tarixə qalıq** | | **2 000,00** | - | **109 179,59** | **111 179,59** |

| PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ | Qeyd | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə xalis mənfəət /zərər | 24 | 101 913,50 | 39 037,11 |
| Mənfəət vergisi üzrə xərclər | 25 | - 23 064,26 | - 8 706,76 |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | | |
| Əsas vəsaitlərin amortizasiyası | 22 | 500,71 | 5 508,48 |
| Əsas vəsaitlərin satışından və xaric olmasından gəlirlər/zərərlər | | - | |
| Qeyri-maddi aktivlərin amortizasiyası | | | |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər | | | |
| Ehtiyatlar üzrə artma/azalma | 3 | - 18 388,64 | - 7 747,69 |
| Debitor borcları üzrə artma/azalma | 11 | - 98 193,73 | - 50 384,30 |
| Sair qısamüddətli maliyyə aktivləri üzrə artma/azalma | | | |
| Digər aktivlərdə | 14 | - 6 200,80 | - 13 618,80 |
| Sair qısamüddətli aktivləri üzrə artma/azalma | | | |
| Alınmış avanslar üzrə artma/azalma | | | |
| Cari vergi və sosial sığortaöhdəlikləri üzrə artma/azalma | 16 | 50 216,06 | 60 862,77 |
| Əməliyyat kreditor borcları və hesablaşmalar | | | |
| Sair qısamüddətli kreditor borcları | 17 | 37 929,31 | 14 394,56 |
| Sair uzunmüddətli öhdəliklər | 18 | 282 000,00 | 64 000,00 |
| Maddələr arasında baş vermiş dəyişikliklər | | | |
| Mənfəət vergisi ödənilmişdir | | | |
| ***Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | | **326 712,15** | **103 345,37** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin alınması | 6 | - 122 799,34 | - 22 033,90 |
| Qeyri-maddi aktivlərin alınması | 3 | - 2 600,00 | |
| Uzunmüddətli kapital qoyuluşları | | | |
| Xaric olmuş əsas vəsaitlərin qalıq dəyəri | | | |
| Gələcək dövrün gəlirləri | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **- 125 399,34** | **- 22 033,90** |
| ***Məzənnə fərqi*** | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına yaranan pul vəsaitlərinin xaricolmaları | | | |
| Səhm buraxılışı | 15 | 1 900,00 | |
| Kapital ehtiyatlarının dəyişməsi (Bölünmə balansına əsasən Əvvəlki illər üzrə bölüşdürülməmiş mənfəət) | | | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin daxilolmalar | | | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaric olmaları | | - | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **1 900,00** | **-** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması)** | | **203 212,81** | **81 311,47** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | 12 | **81 311,47** | **-** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | 12 | **284 524,28** | **81 311,47** |
| **İl ərzində artım/azalma** | | **203 212,81** | **81 311,47** |

**SƏRBƏST AUDİTOR** — AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI 1995 — **İNDEPENDENT AUDİTOR**

Azərbaycan Respublikası, AZ1130 | 24A/23 A. Nahchivani street | Phone: 070 338 6727
Bakı şəhəri, Ə. Naxçıvani küç. 24A/23 | AZ1130, Baku Azerbaijan | Phone: 050 338 6727
VÖEN: 1005147262 | TAX ID: 1005147262
Audit icazəsi: SA/387 | Audit License: SA/387 | email: aliyev.n2012@gmail.com

**Müstəqil Auditorun Maliyyə Hesabatlarının Auditinə Dair Hesabatı**
**" KAPİTAL SECURİTY " Qapalı Səhmdar Cəmiyyətinin Rəhbərliyinə**

**Rəy**

Mən “KAPİTAL SECURİTY” Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra - şirkət) 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Hesab edirəm ki, qoşma maliyyə hesabatları Şirkətın 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Mən Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının “Peşəkar Mühasiblərin Etika Məcəlləsinin” (IESBA) tələblərinə uyğun olaraq Şirkətdən asılı deyiləm və mən digər etik öhdəliklərimizi IESBA məcəlləsinin tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının İFRS (Beynəlxalq Maliyyə Hesabatları Standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi mən audit aparılan zaman peşəkar mühakimə tətbiq edirəm və peşəkar inamsızlıq nümayiş etdirirəm. Mən həmçinin:

• Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirirəm, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirirəm və rəyimi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirəm. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.

• Şirkətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürəm.

• İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndirirəm.

• Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Şirkətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarıram. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığım halda, auditor hesabatımda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyəm və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimə dəyişiklik etməliyəm. Nəticələrim auditor hesabatımın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Şirkətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

• Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndirirəm.

Mən subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığım zaman daxili nəzarətdə aşkar etdiyim əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrəm.

Mən həmçinin subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat verirəm ki, müstəqilliyə və müstəqilliyimə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimə dair müvafiq etik normalarına riayət etmişəm.

Şirkətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən mən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirəm. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat verməmin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə mən bu məsələ haqqında hesabatımda məlumatın verilməməsini qərara almadığım halda, mən bu məsələləri auditor hesabatında təsvir edirəm.

**Sərbəst Auditor**
**Əliyev Natiq Firuddin oğlu**

**Bakı şəhəri, Azərbaycan Respublikası**
**21 sentyabr, 2023-cü il**

# Azərbaycanın 2024-cü il dövlət büdcəsi haqqında qanun layihəsi Milli Məclisə daxil olub

Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən “Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” qanunun layihəsi və büdcə zərfinə daxil olan sənədlər Milli Məclisə daxil olub. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, əhalinin, o cümlədən vətəndaş cəmiyyəti institutlarının dövlət büdcəsi ilə bağlı məlumatlara əlçatanlığının təmin olunması, habelə parlamentin fəaliyyətində ictimai iştirakçılığın artırılması məqsədilə müvafiq qanun layihəsi parlament müzakirələrindən əvvəl Milli Məclisin rəsmi internet səhifəsində yerləşdirilir.



# Pekində 3-cü “Bir kəmər, bir yol” beynəlxalq əməkdaşlıq forumu işə başlayıb




Çinin paytaxtı Pekində 3-cü “Bir kəmər, bir yol” beynəlxalq əməkdaşlıq forumu işə başlayıb. Çin Xalq Respublikasının ev sahibliyi etdiyi forumun açılış mərasimində bir neçə ölkənin dövlət və hökumət başçısı, yüksəkvəzifəli rəsmi şəxslər, beynəlxalq və regional təşkilatın rəhbərləri iştirak edir. “Bir kəmər, bir yol” təşəbbüsünün 10-cu ildönümünə təsadüf edən builki forumda 114 ölkədən və 30 beynəlxalq təşkilatdan ümumilikdə 4 mindən çox nümayəndə iştirak edir. Azərbaycanı forumda energetika naziri Pərviz Şahbazovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil edir.

Forumun müxtəlif mövzularda bölmə iclaslarında “Bir kəmər, bir yol” təşəbbüsü üzrə əməkdaşlıq məsələləri, habelə “yaşıl” inkişaf, rəqəmsal iqtisadiyyat, təmiz ipək yolu, dənizçilik əməkdaşlığı müzakirə olunacaq.



# Azərbaycanın dövlət müstəqilliyinin bərpasından 32 il ötür

***Azərbaycan xalqı dövlət müstəqilliyimizin bərpasının 32 illiyini qeyd edir.***

32 il əvvəl Azərbaycan Respublikası Ali Soveti Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul edib. Oktyabrın 8-də işə başlayan növbədənkənar sessiya məsələni dörd gün ərzində müzakirə etsə də, qərarın verilməsini bir həftə sonraya saxladı. Nəhayət 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında sənəd qəbul edildi. 2021-ci il oktyabrın 15-də Milli Məclis Prezident İlham Əliyevin təşəbbüsü ilə "Müstəqillik Günü haqqında" yeni Qanunu təsdiqlədi. Qanuna əsasən, mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan olundu.

Təbii ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan daha çətindir. Azərbaycan xalqı 1990-cı illərin əvvəllərində yenicə bərpa etdiyi müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Amma xalqımız bu ağır günlərdə qətiyyət, möhkəm iradə nümayiş etdirərək öz taleyinə sahib çıxdı. 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkəmizin müstəqilliyini əbədi və dönməz etdi. Əslində, Azərbaycan əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan möhkəm təməllər üzərində yeni inkişaf yolunu tutdu. Azərbaycanı müsəlman Şərqində ilk demokratik respublika olan Xalq Cümhuriyyətinin varisi elan edən Ulu Öndər Heydər Əliyev müasir dövlət quruculuğu istiqamətində işlərə başladı. Ümummilli Liderin yorulmaz səyləri nəticəsində qısa müddətdən sonra Azərbaycanın səsi dünyanın ən nüfuzlu təşkilatların yüksək kürsülərindən gəldi. Bir sözlə, əgər Azərbaycanın müstəqilliyi tarixi zərurətdən irəli gələn hadisə idisə, bu müstəqilliyin əbədiliyi və dönməzliyi Ümummilli Liderin adı ilə bağlıdır.

***Ulu Öndər Heydər Əliyevin müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində yorulmaz səyləri bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən davam etdirilir.*** Ulu Öndərin çoxşaxəli fəaliyyətinin nəticələrinə əsaslanaraq Prezident İlham Əliyev ölkəmizə rəhbərliyi dövründə siyasi, iqtisadi, sosial və hərbi sahələrdə böyük tərəqqi və inkişafa nail olub. Azərbaycan yerləşdiyi bölgədə cərəyan edən strateji, siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadir ölkəyə çevrilib. Milli maraqlara uyğun olaraq beynəlxalq birliyin əkər üzvləri ilə qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirilir. Dövlətimizin başçısının müəyyənləşdirdiyi uğurlu inkişaf strategiyası nəticəsində Azərbaycan iqtisadiyyatı inkişaf sürətinə görə dünyada ən yüksək yerlərdə dayanır.



Ölkəmizə yeni can verən Ümummilli Liderin ən böyük arzusu işğal altında olan torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. ***Ulu Öndər Heydər Əliyevin bu arzusunu da onun layiqli davamçısı Prezident İlham Əliyev reallaşdırdı. 2020-ci ildə 44 günlük Vətən müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı şanlı Qələbə nəticəsində işğala son qoyuldu, düşmən torpaqlarımızdan qovulub çıxarıldı, ərazi bütövlüyümüz bərpa edildi. Artıq işğaldan azad olunmuş ərazilərimizə həyat qayıdır.*** Dövlətimizin başçısının göstərişinə əsasən azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir, Böyük Qayıdış Proqramı icra olunur. Görülən işlər Azərbaycan dövlətinin gücünü, qüdrətini, iqtisadi imkanlarını nümayiş etdirir. Təbii ki, ölkəmizin qüdrətini nümayiş etdirən daha bir hadisə bu il sentyabrın 19-20-də baş verdi. Azərbaycan Silahlı Qüvvələrinin Qarabağın qeyri-qanuni erməni silahlı birləşmələrindən təmizlənməsi və ərazilərimizdəki qondarma rejimin ləğv edilməsi istiqamətində başlatdığı lokal xarakterli antiterror tədbirləri qısa müddətdə böyük uğurla nəticələndi. Qeyri-qanuni erməni silahlı birləşmələrinin tərk-silah olunması, qondarma rejiminin özünü buraxdığını elan etməsi ilə Azərbaycan bütün ərazilərində suverenliyini bərpa etdi. Beləliklə, bu gün Azərbaycanın üçrəngli Dövlət Bayrağı ölkəmizin bütün şəhər və rayonlarında dalğalanır.

***Özünün müdrik, uzaqgörən və qətiyyətli Liderinin rəhbərliyi ilə möhtəşəm uğurlara imza ataraq tarixi Zəfər qazanan xalqımız bütün dünyaya göstərdi ki, Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir!***

# Prezident İlham Əliyevin Xankəndidə Azərbaycan Bayrağını ucaltması xarici KİV-lərin diqqət mərkəzindədir

**İtaliya**

İtaliyanın nüfuzlu "La Repubblica" qəzeti Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndi şəhərinə səfərinə yer ayırıb.

Yazıda Prezident İlham Əliyevin Xankəndi şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaltdığı qeyd olunur. Bildirilir ki, Azərbaycan Prezidenti Xankəndidə çıxış edib.

Qeyd edək ki, Prezident İlham Əliyev oktybarın 15-də Xankəndi ilə yanaşı, Sərsəng su anbarının ərazisində, Ağdərə və Xocalı şəhərlərində, eləcə də Əsgəran qəsəbəsində Azərbaycanın Dövlət Bayrağını ucaldıb.

**Latviya**

Latviyanın "Delfi" nəşri yazır ki, İlham Əliyev iki onillik prezidentliyi dövründə ilk dəfə olaraq 1990-cı illərdən erməni separatçılarının nəzarəti altında olan Xankəndiyə səfər edib.

Yazıda Azərbaycan Ordusunun sentyabrın 19-da bölgədə həyata keçirdiyi antiterror tədbirlərinə toxunulub, bir gün sonra qondarma "respublika"nın hakimiyyət orqanlarının müqaviməti dayandırdıqlarını elan etdikləri bildirilib.

Eyni zamanda, diqqətə çatdırılıb ki, Azərbaycan hökuməti qondarma qurumun fəaliyyətini dayandırdıqdan sonra bölgəni tərk etməməyə qərar verən erməni əhali üçün reinteqrasiya planını açıqlayıb.



CONTENUTO PER GLI ABBONATI PREMIUM

Il presidente dell'Azerbaijan alza la bandiera di Baku nella capitale del Nagorno

Cerimonia dopo la fuga di massa degli armeni seguita all'offensiva lampo azera nella regione

**Yaponiya**

Yaponiyanın nüfuzlu NHK televiziya kanalı Prezident İlham Əliyevin Xankəndidə Azərbaycan Bayrağını ucaltması barədə süjet yayımlayıb. Süjetdə ötən ay Qarabağdakı erməni silahlı qruplarına qarşı keçirilmiş və qələbə ilə başa çatmış tədbirlərdən sonra Azərbaycan Prezidentinin oktyabrın 15-də bölgənin mərkəzi şəhəri olan Xankəndidə Azərbaycan Bayrağını ucaltmasından söz açılıb. Qeyd olunub ki, Prezident İlham Əliyev Xankəndidə Azərbaycan Bayrağının ucaldılmasını tarixi hadisə adlandırıb.

Süjetdə Azərbaycanın Qarabağ bölgəsindəki qondarma "respublika"nın özünü buraxmasından, Rusiya Prezidenti Vladimir Putinin Azərbaycan ilə Ermənistan arasında sülh danışıqları üçün təkliflərindən, rəsmi İrəvanın Qərbə meyillənməsindən söz açılıb.

**Moldova**

Moldovanın "Tv8" kanalının saytında yayımlanan xəbərdə vurğulanır ki, Prezident İlham Əliyevin Xankəndidə Azərbaycan Bayrağını qaldırması bu ölkənin bütün ərazisində nəzarəti bərpa etməsini simvolizə edir.

**Ukrayna**

Ukraynanın "Ukrinform", "RBK-Ukrayna", "Azadlıq" Radiosunun Ukrayna Redaksiyası, "TSN", "24Kanal", "DeutscheWelle"nin Ukrayna Redaksiyası, "Gazeta", "Korrespondent", "NV", "Podrobnosti", "Yevropeyskaya Pravda", "Ukraynskaya Pravda", "Fakti", "Slovom i Dilo" və digər informasiya agentliklərində, xəbər portallarında Ukrayna, rus və ingilis dillərində dərc olunan məqalələrdə Prezident İlham Əliyevin Xankəndi şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaltdığı xüsusi qeyd edilib.

Həmçinin bildirilib ki, Prezident İlham Əliyev Qarabağın digər yaşayış məntəqələrində, o cümlədən Ağdərə, Xocalı, Kərkicahan və Malıbəylidə olub, Azərbaycanın üçrəngli Dövlət Bayrağını ucaldıb.



Sydney Today 14° / 28°
news.com.au
National World Lifestyle Travel Entertainment Technology Finance Sport
Breaking News

Victorious Aliyev says fulfilled Azerbaijani 'dream' in Karabakh

Victorious Aliyev says fulfilled Azerbaijani 'dream' in Karabakh

AFP

Handout from Azerbaijani presidential press office showing Aliyev kneeling by an Azerbaijani national flag in Khojaly, Nagorno-Karabakh

**Estoniya**

Estoniyanın "Postimees" nəşri də dövlətimizin başçısının Qarabağa səfərindən yazıb. Bildirilib ki, bu, rəsmi Bakının bölgəyə nəzarəti bərpa etməsindən sonra Prezident İlham Əliyevin buraya ilk səfəridir. Yazıda, eyni zamanda ötən ay Azərbaycanın bölgədə həyata keçirdiyi antiterror tədbirlərinə də toxunulub.

**ABŞ**

ABŞ-ın "Barron's" dərgisi Prezident İlham Əliyevin 20 illik prezidentlik fəaliyyətinin bir nömrəli məqsədinin Qarabağın erməni separatçılarından azad edilməsi və Azərbaycan Bayrağının Xankəndidə dalğalanmasının tarixi hadisə olması ilə bağlı fikirlərinə diqqət çəkib. Portal qeyd edib ki, Azərbaycan Prezidenti Xankəndidə Dövlət Bayrağının qaldırılmasının böyük xoşbəxtlik və tarixi hadisə olduğunu bildirib.

**Böyük Britaniya**

Böyük Britaniyanın "İndependent" nəşrində dərc olunan yazıda vurğulanıb ki, Prezident İlham Əliyevin Qarabağda Azərbaycan Bayrağını ucaltması bu ölkənin bölgəyə nəzarətinin təsdiqidir.

Eyni zamanda, diqqətə çatdırılıb ki, beynəlxalq aləmdə Azərbaycanın tərkib hissəsi kimi tanınan Qarabağ 1994-cü ildən etnik erməni qüvvələrin nəzarəti altında separatçı "dövlət"ə çevrilmişdi. 2020-ci ildə baş verən müharibə nəticəsində Azərbaycan Qarabağın böyük hissəsinə nəzarəti bərpa edib.

Ötən ay isə Azərbaycan Ordusu bölgənin qalan hissəsindən erməni silahlı qüvvələrini darmadağın edərək, onları təslim olmağa məcbur edib.

**Avstraliya**

"news.com.au" portalı yazır ki, qalib Prezident İlham Əliyev bazar günü regionun əsas şəhərində ölkəsinin bayrağını qaldırarkən deyib: ***"Biz istədiyimizə nail olduq, Azərbaycan xalqının onilliklər ərzində olan arzularını çin etdik. Oxucuların diqqətinə çatdırılıb ki, Prezident Əliyev Qarabağda Azərbaycan hakimiyyətini görmək üçün 20 il gözlədiyini bildirib. O, həmçinin qeyd edib ki, bu Qələbə bizim tariximizdə əbədi olacaq. Yazıda qeyd olunub ki, İlham Əliyevin bu səfəri onun atası Heydər Əliyevdən sonra Azərbaycan Prezidenti olduqdan düz 20 il sonraya təsadüf edib.***

***"İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın",*** - deyə portal Prezident İlham Əliyevin çıxışından sitat gətirib.

**Gürcüstan**

Gürcüstanın "interpressnews.ge", "amnebi.ge", "qafqazturk.com", "aktual.ge", "realnews.ge", "24news.ge", "interpress.ge" portalları da Prezident İlham Əliyevin Qarabağa səfəri ilə bağlı silsilə materiallar yayıblar. Materiallarda Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndi şəhərinə, Xocalıya və işğaldan azad edilmiş digər bölgələrə səfəri və həmin ərazilərdə Dövlət Bayrağını ucaltması, eləcə də bu bölgələrdə həyata keçirilən islahatlar, erməni separatçıların aldıqları layiqli cəza, həmçinin Qarabağ bölgəsinin çiçəklənməsi ilə bağlı layihələr barədə dövlətimizin başçısının fikirləri yer alıb.

**Macarıstan**

Macarıstanın "hirado.hu" saytı yazır ki, Prezident İlham Əliyevin Xankəndində Azərbaycan Bayrağını ucaltdıqdan sonra etdiyi çıxışında Azərbaycanın torpaqlarını geri qaytardığını söyləyib. O deyib ki, Azərbaycan bu anı 20 il idi gözləyirdi. Prezident İlham Əliyev qeyd edib ki, bu, 20 il əvvəl vəzifəyə gəldiyi gündən onun bir nömrəli hədəfi olub.

*Bu ölkənin "24.hu" və "privatbankar.hu" portallarında yayımlanan informasiyalarda Azərbaycan Prezidentinin Qarabağ səfərinə toxunulub, bu regionun tarixinə nəzər salınıb. Bildirilib ki, Qarabağ beynəlxalq hüquqa görə Azərbaycanın tərkib hissəsidir, lakin təxminən 30 il əvvəl tərəflər arasında baş vermiş birinci müharibədən sonra ermənilərin nəzarətinə keçib. Lakin Azərbaycan 2020-ci ilin payızında ərazinin bir hissəsini geri qaytarıb, bu ilin sentyabrında isə separatçıları diz çökdürüb. Bundan sonra isə rəsmi Bakı ərazinin Azərbaycana reinteqrasiyası ilə bağlı danışıqlara başlayıb. Azərbaycan rəhbərliyi ermənilərin hüquqlarını təmin edəcəyinə söz versə də, onlar qorxduqları üçün ərazini tərk ediblər. Böyük Britaniyanın "gazetteherald" nəşrində, ABŞ-ın "The Seattle Times" qəzetlərində, həmçinin "Reuters" agentliyində, Fransanın "France24", "Francetvinfo" telekanallarının saytında, Kanadanın "La presse", Yunanıstanın "Newsbeast", BƏƏ-nin "Sky news arabian", "aletihad", Qətərin "Alaraby", Səudiyyə Ərəbistanının "Asharq" və digər portallarda yayımlanan informasiyalarda dövlətimizin başçısının Xankəndidə Azərbaycanın Dövlət Bayrağını ucaltdığı və sonra çıxış etdiyi oxucuların diqqətinə çatdırılıb.*



Asia Pacific

Aliyev raises Azerbaijan's flag in for breakaway region of Karabakh

Reuters

October 15, 2023 6:04 PM GMT+4 · Updated 18 hours ago

[1/4] Azerbaijan's President Ilham Aliyev attends a flag raising ceremony in the town of Aghdara, known as Martakert by Armenians, following Azerbaijan's military operation and a further mass exodus of ethnic Armenians from the region of Nagorno-Karabakh, Azerbaijan October 15, 2023. President of the... Acquire Licensing Rights Read more

MOSCOW, Oct 15 (Reuters) - Azerbaijani President Ilham Aliyev on Sunday raised the natio capital of the former breakaway region of Nagorno-Karabakh after a lightning military oper month brought the territory back under Azerbaijan's control.

"President of the Republic of Azerbaijan Ilham Aliyev has raised the national flag of the Rep Azerbaijan in the city of Khankendi and delivered a speech," the presidential office said.

# Mərkəzi Bankın səlahiyyəti artırılır




Bu, Milli Məclisin müzakirəyə çıxarılan "Mərkəzi Bank haqqında" qanuna təklif olunan dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, Mərkəzi Bank maliyyə bazarlarının fəaliyyətinin sabitliyi və dayanıqlığını təmin etmək məqsədilə digər maliyyə bazarı iştirakçıları kimi, ödəniş təşkilatları, elektron pul təşkilatları, ödəniş sistemləri operatorlarının da fəaliyyətinin lisenziyalaşdırılması, tənzimlənməsini və fəaliyyətləri üzərində nəzarəti həyata keçirəcəkdir.

Layihə səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

# Konteynerlərlə daşınan idxal-ixrac yüklərinin həcmi artıb

"Azərbaycan Dəmir Yolları" QSC-nin törəmə şirkəti olan "ADY Konteyner" MMC bu ilin 9 ayı ərzində konteynerlərlə daşınan idxal və ixrac yüklərinin həcmində artıma nail olub.

Bu barədə "ADY Konteyner" MMC-dən məlumat verilib.

Belə ki, 2023-cü ilin 9 ayı ərzində konteynerlərlə idxal yüklərinin nəqli 8059 TEU təşkil edib. 2022-ci ilin eyni dövründə isə bu göstərici 5356 TEU olub. Beləliklə, idxal rejimində konteynerlərlə yükdaşımalarda 50 faiz artım qeydə alınıb. İdxal olunan yüklərin sırasında əsasən müxtəlif sənaye, kimya sənayesi məhsullarını, əlvan metallurgiya, tikinti materialları, nəqliyyat vasitələri və onların ehtiyyat hissələrini qeyd etmək olar.

Konteynerlərlə daşınan ixrac yüklərinin nəqlinə gəlincə, 2023-cü ilin ilk 9 ayı ərzində "ADY Konteyner" MMC 11 306 TEU yük daşıyıb. 2022-ci ilin eyni dövründə bu rəqəm 4609 TEU təşkil edib. Bu da 145 faiz artım deməkdir. Nəql olunan ixracyönümlü yüklər sırasında əlvan metallurgiya, sənaye, kimya sənayesi məhsulları üstünlük təşkil edir.



# 9 ayda emal sənayesində 13,2 milyard manatlıq məhsul istehsal olunub

Emal sənayesində 2023-cü ilin yanvar-sentyabr aylarında 13 milyard 243,7 milyon manatlıq məhsul istehsal olunub və sənaye xarakterli xidmətlər göstərilib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə içki istehsalında 25,7 faiz, qida məhsullarının istehsalında 10,8 faiz, tütün məmulatlarının istehsalında isə 4,6 faiz artım müşahidə olunub. Bu sahələrin əsas məhsullarından üzüm şərabının istehsalı 42,7 faiz, unlu qənnadı məmulatlarının istehsalı 24,6 faiz, siqaret istehsalı 14,0 faiz, şəkərli qənnadı məmulatlarının istehsalı 13,2 faiz, meyvə-tərəvəz konservlərinin istehsalı isə 1,6 faiz artıb.

# Qeyri-neft-qaz məhsullarının ixracı artıb

2023-cü ilin yanvar-avqust aylarında qeyri-neft-qaz məhsullarının ixracı ötən ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 14,6 faiz, real ifadədə 10,6 faiz artaraq 2210,4 milyon dollara bərabər olub.

Dövlət Statistika Komitəsindən bildirilib ki, qeyri-neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (32,6 faiz), Türkiyəyə (26,5 faiz), Gürcüstana (9,9 faiz), İsveçrəyə (3,9 faiz), Qazaxıstana (3,3 faiz), Türkmənistana (2,5 faiz), Ukraynaya (2,1 faiz), Birləşmiş Ərəb Əmirliklərinə (1,8 faiz), Özbəkistana (1,3 faiz), Rumıniyaya (1,2 faiz), Qırğızıstana (1,2 faiz), İtaliyaya (1,1 faiz), Latviyaya (1,1 faiz), Çinə (1,1 faiz) göndərilmiş malların payı üstünlük təşkil edib.



# "UNİVERSAL METAL" QSC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HESABATI

| | Qeyd | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Əmlak və avadanlıqlar (Əsas vəsaitlər) | 6 | 64 186,44 | 33 978,43 |
| Qeyri-maddi aktivlər | 3 | | |
| Verilmiş borclar | | | |
| Uçota alınmış investisiyalar | | | |
| Təxirə salınmış vergi aktivləri | | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | **64 186,44** | **33 978,43** |
| ***Qısamüddətli aktivlər*** | | | |
| Ehtiyatlar | 10 | 45 418,72 | 42 229,18 |
| Qısamüddətli debitor borcları | 11 | | 14 641,24 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 43 598,76 | 88 669,61 |
| Digər aktivlər | 14 | 53 526,03 | 10,00 |
| Sair qısamüddətli aktivlər | | | |
| Gələcək dövrün xərcləri | 14 | | |
| Sair qısamüddətli Maliyyə aktivləri | | | |
| **Cəmi qısamüddətli aktivlər** | | **142 543,51** | **145 550,03** |
| **CƏMİ AKTİVLƏR** | | **206 729,95** | **179 528,46** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| Nizamnamə kapitalı | 15 | 2 000,00 | 10,00 |
| Kapital ehtiyatları | | | |
| Hesabat dövrünün bölüşdürülməmiş xalis mənfəəti /zərəri | 26 | - 634 677,59 | 59 222,98 |
| Əvvəlki illərin bölüşdürülməmiş xalis mənfəəti /zərəri | | | 14 522,71 |
| **CƏMİ KAPİTAL** | | **- 632 677,59** | **73 755,69** |
| **Öhdəliklər** | | | |
| Uzunmüddətli öhdəliklər | 18 | 490 045,00 | 145,00 |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Gələcək dövrün gəlirləri | | | |
| Təxirə salınmış vergi öhdəlikləri | 18 | | 2 233,41 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **490 045,00** | **2 378,41** |
| ***Qısamüddətli öhdəliklər*** | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Qısamüddətli borclar (alınmış avanslar) | | | |
| Qısamüdətli kreditor borcları | 17 | 285 903,07 | 49 459,22 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 16 | 63 459,47 | 53 935,14 |
| Sair qısamüdətli öhdəliklər | | | |
| **Cəmi qısa müddətli öhdəliklər** | | **349 362,54** | **103 394,36** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **839 407,54** | **105 772,77** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **206 729,95** | **179 528,46** |

| MƏNFƏƏT VƏ ZƏRƏRLƏR | Qeyd | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 19 | 2090 720,10 | 1581 696,70 |
| Satışın maya dəyəri | 22 | -2735759,25 | - 1 476 677,87 |
| Ümumi mənfəət (zərər) | | -645 039,15 | 105 018,83 |
| Daşınmaz əmlakın icarəsindən gəlirləri | | | |
| Kommersiya xərcləri | | | |
| İnzibati xərclər | 22 | - 62 959,28 | - 24 705,81 |
| Sair əməliyyat xərcləri | | | |
| Əməliyyat mənfəəti (zərəri) | | - 707 998,43 | 80 313,02 |
| Maliyyə gəlirləri | | | |
| Maliyyə xərcləri | | | |
| Fövqəladə gəlirlər | | | |
| Fövqəladə xərclər | | | |
| Vergidən azad olan gəlirlər üzrə xərclər | | | |
| Vergidən azad olan gəlirlər | | | |
| Gəlirdən çıxılan vergilər və yığımlar | 22 | - 424,85 | - 107,84 |
| Məzənnə fərqi | | | |
| Vergitutmadan əvvəl mənfəət (zərər) | | - 708 423,28 | 80 205,18 |
| Keçmiş illərin zərərinə silinir | | | - |
| Mənfəət üzrə azadolmalar və güzəştlər | | | - |
| Vergidən azad olan gəlirlər | | - | - |
| Vergiyə cəlb olunan mənfəət | 24 | - 708 423,28 | 80 205,18 |
| Mənfəət vergisi xərci | 25 | | - 20 982,20 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 26 | - 708 423,28 | 59 222,98 |
| Mənfəətdə iştirak payı: | | | |
| Səhmdarların payı | 26 | - | 8 020,52 |
| Səhmdarların payına düşən bir səhmin mənfəəti: | | | |
| Bir səhmin əsas mənfəəti | 26 | - | 5 922,30 |

| KAPİTALDA DƏYİŞİKLİKLƏR | Qeyd | Nizamnamə Kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| **31 dekabr 2020-ci il tarixə qalıq** | | **10,00** | | 14 522,71 | **14 532,71** |
| 2021-ci il üzrə xalis mənfəət | 26 | | | 59 222,98 | **59 222,98** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | - |
| Elan edilmiş dividendlər | | | | | - |
| Maddələr arasında köçürmələr | | | | | - |
| **31 dekabr 2021-ci il tarixə qalıq** | | **10,00** | - | **73 745,69** | **73 755,69** |
| 2022-ci il üzrə xalis mənfəət | 26 | | | - 708 423,28 | **-708 423,28** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 15 | 1 990,00 | | | **1 990,00** |
| Elan edilmiş dividendlər | | | | | - |
| Maddələr arasında köçürmələr | | | | | - |
| **31 dekabr 2022-ci il tarixə qalıq** | | **2 000,00** | - | **- 634 677,59** | **-632 677,59** |

| PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ | Qeyd | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə xalis mənfəət /zərər | 24 | - 708 423,28 | 80 205,18 |
| Mənfəət vergisi üzrə xərclər | 25 | - | - 20 982,20 |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | | |
| Əsas vəsaitlərin amortizasiyası | 22 | | 2 330,94 |
| Əsas vəsaitlərin satışından və xaric olmasından gəlirlər/zərərlər | | | |
| Qeyri-maddi aktivlərin amortizasiyası | | | |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər | | | |
| Ehtiyatlar üzrə artma/azalma | 3 | - 3 189,54 | - 42 229,18 |
| Debitor borcları üzrə artma/azalma | 11 | 14 641,24 | - 14 641,24 |
| Sair qısamüddətli maliyyə aktivləri üzrə artma/azalma | | | |
| Digər aktivlərdə | 14 | - 53 516,03 | |
| Sair qısamüddətli aktivləri üzrə artma/azalma | | | |
| Alınmış avanslar üzrə artma/azalma | | | |
| Cari vergi və sosial sığorta öhdəlikləri üzrə artma/azalma | 16 | 7 290,92 | 38 808,44 |
| Əməliyyat kreditor borcları və hesablaşmalar | | | |
| Sair qısamüddətli kreditor borcları | 17 | 236 443,84 | 48 121,46 |
| Sair uzunmüddətli öhdəliklər | 18 | 489 900,00 | 35,00 |
| Maddələr arasında baş vermiş dəyişikliklər | | | |
| Mənfəət vergisi ödənilmişdir | | | |
| ***Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | | **- 16 852,85** | **91 648,40** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin alınması | 6 | - 30 208,00 | - 35 525,37 |
| Qeyri-maddi aktivlərin alınması | 3 | | |
| Uzunmüddətli kapital qoyuluşları | | | |
| Xaric olmuş əsas vəsaitlərin qalıq dəyəri | | | |
| Gələcək dövrün gəlirləri | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **- 30 208,00** | **- 35 525,37** |
| ***Məzənnə fərqi*** | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına yaranan pul vəsaitlərinin xaricolmaları | | | |
| Səhm buraxılışı | 15 | 1 990,00 | |
| Kapital ehtiyatlarının dəyişməsi (Bölünmə balansına əsasən Əvvəlki illər üzrə bölüşdürülməmiş mənfəət) | | | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin daxilolmalar | | | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaric olmaları | | - | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **1 990,00** | **-** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması)** | | **- 45 070,85** | **56 123,03** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | 12 | **88 669,61** | **32 546,58** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | 12 | **43 598,76** | **88 669,61** |
| **İl ərzində artım/azalma** | | **- 45 070,85** | **56 123,03** |

**SƏRBƏST AUDİTOR** **İNDEPENDENT AUDİTOR**

Azərbaycan Respublikası, AZ1130 | 24A/23 A. Nahchivani street | Phone: 070 338 6727
Bakı şəhəri, Ə. Naxçıvani küç. 24A/23 | AZ1130, Baku Azerbaijan | Phone: 050 338 6727
VÖEN: 1005147262 | TAX ID: 1005147262
Audit icazəsi: SA/387 | Audit License: SA/387 | email: aliyev.n2012@gmail.com

**Müstəqil Auditorun Maliyyə Hesabatlarının Auditinə Dair Hesabatı**
**" UNİVERSAL METAL" Qapalı Səhmdar Cəmiyyətinin Rəhbərliyinə**

**Rəy**

Mən "UNİVERSAL METAL" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra - şirkət) 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Hesab edirəm ki, qoşma maliyyə hesabatları Şirkətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar Mühasiblərin Etika Məcəlləsinin" (IESBA) tələblərinə uyğun olaraq Şirkətdən asılı deyiləm və mən digər etik öhdəliklərimizi IESBA məcəlləsinin tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının İFRS (Beynəlxalq Maliyyə Hesabatları Standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi mən audit aparılan zaman peşəkar mühakimə tətbiq edirəm və peşəkar inamsızlıq nümayiş etdirirəm. Mən həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirirəm, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirirəm və rəyimi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirəm. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Şirkətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürəm.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndirirəm.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Şirkətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarıram. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığım halda, auditor hesabatımda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyəm və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimə dəyişiklik etməliyəm. Nəticələrim auditor hesabatımın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Şirkətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndirirəm.

Mən subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığım zaman daxili nəzarətdə aşkar etdiyim əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrəm.

Mən həmçinin subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat verirəm ki, müstəqilliyə və müstəqilliyimə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimə dair müvafiq etik normalarına riayət etmişəm.

Şirkətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən mən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirəm. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə mən bu məsələ haqqında hesabatımda məlumatın verilməməsini qərara almadığım halda, mən bu məsələləri auditor hesabatında təsvir edirəm.

**Sərbəst Auditor**
**Əliyev Natiq Firuddin oğlu**

**Bakı şəhəri, Azərbaycan Respublikası**
**30 sentyabr, 2023-cü il**

# İctimai iaşə dövriyyəsi 21 %-dən çox artıb



Bu ilin yanvar-sentyabr aylarında Azərbaycanda ictimai iaşə dövriyyəsi 2022-ci ilin eyni dövrü ilə müqayisədə real ifadədə 21,2% artaraq 1 milyard 484,3 milyon manat olub.

Məlumata görə, ictimai iaşə dövriyyəsinin 13 milyon 539,5 min manatı dövlət, 1 milyard 470,7 milyon manatı isə qeyri-dövlət sektorunun payına düşüb.

Hesabat dövrünə özəl sektorda ictimai iaşə dövriyyəsinin 50,5%-i hüquqi şəxslərin, 49,5%-i isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin payına düşür.

Hüquqi şəxslər üzrə dövriyyə il ərzində 22,5% artaraq 742,3 milyon manat olub.

# Gələn il ali təhsil xərcləri 2 dəfəyə qədər artırılır

Gələn il təhsil xərcləri 4 549 916 090,0 manat proqnozlaşdırılır.

Bu, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsində əksini tapıb.

Bu, 2023-cü illə müqayisədə 142 751 761 manat, yaxud 3,2 faiz çoxdur. 2023-cü ildə təhsil xərcləri 4 407 164 329,0 manat nəzərdə tutulub.

2023-cü illə müqayisədə ən çox artım ali təhsil xərcləri sahəsində olacaq. Ali təhsil xərcləri 64 199 313 manat, başqa sözlə, 91 faizə, yaxud 2 dəfəyə qədər artırılaraq 70 606 841,0 manatdan 134 806 154,0 manata qaldırılır. Məktəbəqədər təhsil xərcləri 11,9 faiz artırılaraq 453 018 349,0 manata, ümumi təhsil xərcləri 13 faiz artırılaraq 2 371 983 758,0 manata, peşə təhsili xərcləri 20 faiz artırılaraq 77 135 017,0 manata, orta ixtisas təhsili xərcləri 16.6 faiz artırılaraq 101 114 397,0 manata, əlavə təhsil xərcləri 75 faiz artırılaraq 20 727 009,0 manata yüksəldilir. Gələn il təhsil sahəsində tətbiqi tədqiqatlara 7586 356,0 manat ayrılır ki, bu da 2023-cü illə müqayisədə 10,1 faiz çoxdur. Təhsil sahəsində digər müəssisə və tədbirlərə ayrılan xərclər isə azaldılır. 2024-cü ildə bu məqsədlə 1 383 545 050,0 manat ayrılması proqnozlaşdırılıb ki, bu da 2023-cü illə müqayisədə 279 466 574 manat, yaxud 16,8 faiz azdır.



# Nəqliyyat və rabitə xərcləri artırılır



2024-cü ildə Azərbaycanda dövlət büdcəsi xərclərinin 528 milyon manatı və yaxud 1,4%-i nəqliyyat və rabitə ilə bağlı xərclərin payına düşəcək.

Bu barədə Maliyyə Nazirliyi məlumat yayıb.

Məlumata görə, bu, 2023-cü ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 57,6% çoxdur.

*Qarabağ uğrunda döyüşən qəhrəmanları unutmayaq!*

# Ramiz Qəmbərov (1962-1992)



Azərbaycanın Milli Qəhrəmanı, Şuşa özünümüdafiə batalyonunun komandiri, Qarabağ müharibəsi döyüşçüsü Ramiz Bulud oğlu Qəmbərov 2 iyul 1962-ci ildə Şuşa şəhərində anadan olmuşdur. 1979-cu ildə H.Hacıyev adına Şuşa şəhər orta məktəbini bitirmişdir. 1980-ci ildə hərbi xidmətə çağırılmış, 1982-ci ildə ordudan tərxis olunaraq Şuşaya qayıtmışdır. 1986-cı ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna daxil olmuşdur. Amma təhsilini başa çatdıra bilməmişdir. Erməni təcavüzkarlarının başlatdığı Qarabağ müharibəsi minlərlə qeyrətli Azərbaycan oğulları kimi Ramizi də torpaqlarımızın müdafiəsinə qalxmağa məcbur etmişdir. Ramiz 1988-ci ildən xalq hərəkatına qoşulmuşdur. O, 1992-ci ildə könüllü özünümüdafiə batalyonu yaratmış və bu batalyonun başçısı olmuşdur. Onun taboru Şuşa şəhərinin, Kərkicahan, Kosalar, Nəbilər, Qaybalı, Malıbəyli, Quşçular, Göytala kəndlərinin müdafiəsində mərdliklə vuruşmuşdur. 29 aprel 1992-ci ildə erməni işğalçıları Kosalar və Kərkicahan kəndləri yaxınlığındakı postlara hücum edən zaman Ramiz Qəmbərovun taboru döyüşə atılmış və bu döyüşdə cəsur komandir ağır yaralanmışdır. Bir gün sonra, 30 aprel 1992-ci ildə o, dünyasını dəyişmişdir. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə Qəmbərov Ramiz Bulud oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Ramiz Qəmbərov Şuşa şəhərində dəfn edilmişdir. Bakı şəhərindəki küçələrdən biri onun adını daşıyır.

Ramiz Qəmbərov haqqında rejissor Kəmalə Musazadənin quruluşunda "Şuşalı şəhid" adlı film çəkilmişdir.

## Dünya

# Pentaqon 2000 əsgəri Yaxın Şərqə göndərməyə hazır olduğunu təsdiqləyib




ABŞ-ın müdafiə naziri Lloyd Austin HƏMAS-ın İsrailə hücumu ilə əlaqədar Yaxın Şərqə mümkün yerləşdirmə üçün 2000 əsgərin yüksək hazırlıq vəziyyətinə gətirilməsini əmr edib, lakin onların yerləşdirilməsi ilə bağlı hələlik qərar verilməyib.

Bu barədə Pentaqonun mətbuat katibinin müavini Sabrina Sinq bildirib.

*"Nazir Austin bu gün 2000-ə yaxın hərbi personalı və çoxsaylı bölmələri yüksək hazırlıq vəziyyətinə gətirərək, Müdafiə Nazirliyinin Yaxın Şərqdə dəyişən təhlükəsizlik mühitinə tez reaksiya vermək qabiliyyətini artıran yerləşdirmə hazırlıqlarını əmr etdi. Hazırda hər hansı qüvvələrin köçürülməsi ilə bağlı qərar qəbul edilməyib"*, - deyə o qeyd edib.

# HƏMAS silahı yerə qoyarsa, münaqişə bitə bilər

Radikal HƏMAS hərəkatının yaraqlıları silahı yerə qoyarsa, Yaxın Şərqdə münaqişə bitə bilər.

AZƏRTAC xəbər verir ki, bu barədə İsrailin BMT-dəki daimi nümayəndəsi Gilad Erdan bildirib.

"Əgər HƏMAS silahlarını yerə qoyarsa, bütün girovları qaytararsa, müharibə bitə bilər", - deyə o qeyd edib.

# Türkiyənin qarşıdakı beş il üçün yol xəritəsi açıqlanıb



Türkiyənin qarşıdakı beş ilini əhatə edəcək İnkişaf Planı hazırlanaraq parlamentə təqdim edilib.

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sosial media hesabından məlumat yayılıb.

Məlumatda deyilir: *"2053 hədəfləri əsasında hazırladığımız və Türkiyənin gələcək beş ili üçün yol xəritəsi olacaq 12-ci İnkişaf Planımızı tamamladıq. QHT-lər, peşəkar təşkilatlar və iş dünyasının təmsilçiləri ilə ortaq fikir əsasında hazırlanan plan müzakirə üçün Türkiyə Böyük Millət Məclisinə təqdim edilib".*

Beş ana maddədən ibarət plan özündə "Bacarıqlı insan, möhkəm ailə, sağlam cəmiyyət", "Sabit inkişaf, güclü istehsalyat", "Yaşıl və rəqəmsal transformasiya ilə rəqabətədavamlı istehsal", "Təbii fəlakətlərə davamlı yaşayış sahələri, davamlı ətraf mühit" və "Ədalətə əsaslanan demokratik, yaxşı idarəçilik" bəndlərini əks etdirir.

# Aİ Şurası İrana qarşı sanksiyaları qüvvədə saxlayacaq

Bu barədə məlumat Aİ Şurasının saytında dərc olunub.

Avropa İttifaqının (Aİ) Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozep Borrelin sözlərinə görə, Aİ Şurası İrana qarşı məhdudiyyətləri ləğv etmək üçün əsaslı səbəb olmadığı qənaətinə gəlib. Aİ nümayəndəsi qeyd edib ki, Fransa, Almaniya və Böyük Britaniyanın xarici işlər nazirləri Tehranın nüvə proqramı üzrə sazişin şərtlərinə riayət etmədiyini və İrana qarşı sanksiyaları davam etdirəcəklərini bildiriblər. Qeyd edək ki, 2015-ci ildə Böyük Britaniya, Almaniya, Çin, Rusiya, ABŞ, Fransa və İran arasında nüvə sazişi - Birgə Kompleks Fəaliyyət Planı (JCPOA) imzalanıb. Saziş İranın nüvə proqramının məhdudlaşdırılması müqabilində ölkəyə qarşı sanksiyaların aradan qaldırılmasını nəzərdə tutur.

# Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov Ümumdünya Səhiyyə Sammiti - 2023 forumunda iştirak edir



Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidməti İdarəsinin rəisi, tibb xidməti general-mayoru, əməkdar həkim, t.ü.f.d., Ceyhun Məmmədov Ümumdünya Səhiyyə Sammiti 2023 forumunda iştirak etmək üçün Almaniya Federativ Respublikasının Berlin şəhərinə ezam olunub. 15 oktyabr 2023-cü il tarixində işə başlayan forumda qlobal səhiyyənin aktual məsələləri: daha sağlam gələcək üçün tibb sahəsində beynəlxalq əməkdaşlığı gücləndirmək, qlobal sağlamlığın əsas siyasi məsələ kimi tanınmasını təşviq etmək, dünyanın bütün ölkələrində elmi əsas tutaraq sağlamlıqla bağlı problemlərin həllini tapmaq və digər məsələlər müzakirə olunur.

Forum çərçivəsində 16 oktyabr 2023-cü il tarixində Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktoru Hans Kluge ilə görüşmüşdür. Forum öz işini oktyabrın 17-də başa çatdırıb.

# Mərkəzi Gömrük Hospitalının klinik bazasında tibb universiteti və kollec tələbələrinə subbakalavr, bakalavr və rezident səviyyəsində tədris keçilir



*Fotoda: Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d. dosent İsmayıl Əfəndiyev Azərbaycan Tibb Universitetinin beşinci kurs tələbələrinə Mərkəzi Gömrük Hospitalında praktiki məşğələ keçən zaman.*

İmzalanmış müvafiq əməkdaşlıq memorandumlarına əsasən, Mərkəzi Gömrük Hospitalının klinik tibbi bazasında Azərbaycan Tibb Universitetinin bakalavr və rezident pilləsində olan tələbələri, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti Bakı filialının bakalavr tələbələri, eləcə də 1 saylı Bakı Tibb kollecinin və 2 saylı Bakı Baza Tibb Kollecinin tələbələri öz bilik və praktiki bacarıqlarını artırır, subbakalavr, bakalavr və rezident səviyyəsində tədris keçirlər. Mərkəzi Gömrük Hospitalının yüksək elmi və klinik potensialından yararlanmaqla həyata keçirilən bu tədris prosesi Azərbaycanda keyfiyyətli tibb kadrlarının hazırlanmasına öz töhfəsini verəcəkdir.

Azərbaycanın klinik tədris mərkəzləri arasında özünəməxsus yer tutan Mərkəzi Gömrük Hospitalının bazasında tibb tələbələri və rezidentlər üçün tədris prosesinin təşkili həm tələbələr, həm də onlara dərs deyən müəllimlər üçün yeni inkişaf imkanları yaradır. Əməkdaşlıq memorandumları yerli və regional səviyyəli sertifikatlaşdırılmış tibbi təlim kurslarının, elmi-praktiki tədbirlərin, tədqiqatların, eləcə də rezident və ixtiraçıların təcrübə mübadiləsinin təmin edilməsi üçün birgə tədris proqramlarının həyata keçirilməsini nəzərdə tutur.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**




**Azəri Light və Brent markalı neftin bir barelinin 12 – 18 oktyabr tarixlərində satış qiyməti (Azəri Light orta aylıq), ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**


# E L A N

**"NTC Company" MMC-nin (VÖEN 1401759931) 3 (üç) əməkdaşının - Məmmədov Cahargah Habil oğlu, Maharov Cəmşid və Hacıyev Danialın şəxsi işləri itib. Tapan şəxsə mükafat veriləcək (tel.: +994 051 215 28 25 - Vüqar).**


**ALLAH RƏHMƏT ELƏSİN**

Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimliyə qardaşı
**VAQİF MƏSİMLİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun kollektivi iş yoldaşları Mail Rəhimova həyat yoldaşı
**SƏYYARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**